Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 288 (8015) CÜMƏ, 21 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Dövlət sahibkarlara, sahibkarlar da dövlətə arxalanır

## Prezident İlham ƏLİYEV: "Biznes mühitinin yaxşılaşdırılması üçün respublikamızda mühüm addımlar atılır"

"İqtisadiyyatın neftdən asılılığının azaldılması və rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılmasını, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılmasını qarşıdakı illərdə strateji hədəflərimizdən biri olaraq müəyyən etmişik. Hazırda qeyri-neft sənayesi və kənd təsərrüfatı sahələrində qazanılan nailiyyətlər sahibkarlara biznes fəaliyyətini genişləndirmələri üçün əlavə stimul yaradır. Milli iqtisadiyyatın dayanıqlı inkişafında sahibkarlığın əhəmiyyətli rol oynayacağına əminliyimi ifadə edirəm".

Bu sözləri Prezident İlham Əliyev Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının V qurultayına ünvanladığı məktubunda söyləyib. Onu da qeyd edək ki, özəl sektora, sahibkarlara ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdən başlamış olan bu güvənlik Prezident İlham Əliyevin fəaliyyətində də prioritet istiqamət kimi davam edir. İstər ulu öndərin ölkəyə 10 illik rəhbərliyi dövründə, istərsə də İlham Əliyevin Prezidentliyi zamanında özəl sektorun ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilməsi üçün saysız-hesabsız tədbirlər görülmüşdür. Bazar iqtisadiyyatının təbii tələblərindən irəli gələn bu siyasət ölkəmizdə o qədər davamlı və hərtərəfli olmuşdur ki, indi nəinki regionda, hətta MDB və Şərqi Avropa məkanında həm sayına, həm də imkanına görə Azərbaycan sahibkarları xüsusilə fərqlənməkdədir. Bu gün bizim iş adamlarının sorağı haralardan gəlmir, onlar hansı sahələrə sərmayə qoymurlar?! Ölkə daxilində biznes adamlarına iş görüb pul qazanmaq üçün əlverişli mühit yaradılmasaydı, sərbəst fəaliyyət göstərmələrinə imkan verilməsəydi, onlar bu imkan sahibi olardılarmı?!

Amma "əvvəl evin içi, sonra çölü" deyiblər. Ölkəmizdə aparılan uğurlu iqtisadi islahatlar, kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyi, yaradılan əlverişli biznes və investisiya mühiti sayəsində iqtisadiyyatımızın məhsul istehsalı sahələrində özəl sektorun payı ildən-ilə artır. Hazırda 45 aqroparkın yaradılması istiqamətində işlər aparılır, 18 aqropark fəaliyyət göstərir. Bu il 612 layihənin icrasına Sahibkarlığın İnkişafı Fondu 160 milyon manat vəsait ayırıb. İki ildə 330 layihəyə investisiya təşviqi sənədi verilib. Bu layihə hesabına 22 min iş yeri açılıb. Sənaye zonaları və məhəllələrində həyata keçirilən layihələrə isə 5,5 milyard manat vəsait yönəldilib.

Sahibkarlığın inkişafı iqtisadi tərəqqi ilə yanaşı, yeni iş yerlərinin açılmasında da mühüm rol oynayır. Son 15 ildə Azərbaycanda 2 milyondan çox yeni iş yeri yaradılıb ki, onların da əksəriyyəti özəl sektordadır. Bu müddətdə orta aylıq nominal əməkhaqqı 6,6 dəfə artıb. Bütün bunlar onu göstərir ki, həyata keçirilən iqtisadi islahatlar, sahibkarlığın inkişafı sahəsində dövlətin atdığı addımlar səmərəsiz qalmır.

Ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin başlıca istiqamətləri özəl sektorun dəstəklənməsi, daha da genişlənməsi, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsi, həmçinin sahibkarların hüquqlarının müdafiəsidir. Sahibkarlıq sahəsində hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə indiyədək bir çox qanunların qəbul olunması, yaxud mövcud qanunlara dəyişikliklər edilməsi bunun təsdiqidir. Belə sənədlərdən biri də "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında"dır.

Həmin sənəddə sahibkarlıq sahəsində aparılan yoxlamaların məqsəd və prinsipləri, təşkili və aparılması qaydaları, yoxlayıcı orqanların və səlahiyyətli şəxslərin hüquq və vəzifələri, sahibkarların hüquq və maraqlarının müdafiəsi ilə bağlı məsələlər öz əksini tapmışdır.

*Ardı 7-ci səh.*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Son illər ərzində Çin-Azərbaycan münasibətləri dinamik inkişaf tendensiyasını qoruyub saxlayır. İki ölkə arasında əlaqələr bütün sahələrdə inkişaf edir, "Bir kəmər - bir yol"un birgə inşası çərçivəsində əməkdaşlıq müvəffəqiyyətlə davam edir.

Mən Çin-Azərbaycan münasibətlərinə böyük diqqət yetirirəm. Ölkələrimiz və xalqlarımız naminə Çin-Azərbaycan dostluq, əməkdaşlıq münasibətlərində yeni-yeni uğurlar əldə edilməsi üçün Sizinlə birgə səylərimi davam etdirməyə hazıram.

Sizə möhkəm cansağlığı arzulayıram.

*Hörmətlə,*

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

---

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Uzaqgörən siyasətiniz və həyata keçirdiyiniz mühüm işlər sayəsində Azərbaycan qlobal miqyasda milli maraqlarını müdafiə edərək güclü regional liderə çevrilmiş, beynəlxalq arenada önəmli yer tutmuşdur.

Qeyd etmək istərdim ki, Azərbaycan Ukrayna üçün etibarlı strateji tərəfdaş olaraq qalır. Əminəm ki, Ukrayna-Azərbaycan əməkdaşlığı gələcəkdə də yüksək dinamikası, eləcə də dövlətlərimiz və xalqlarımız arasında qarşılıqlı əlaqələrin dərinləşməsi ilə xarakterizə ediləcəkdir.

İnanıram ki, iki ölkənin çoxtərəfli təşəbbüs və layihələr çərçivəsində səylərinin birləşdirilməsi Ukraynanın və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün bərpasına təsir edəcəkdir.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Petro POROŞENKO,***
***Ukraynanın Prezidenti***

---

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Bu gün qardaş Azərbaycan Sizin müdrik rəhbərliyinizlə həyatın bütün sahələrində tərəqqi və inkişaf yolunda inamla irəliləyir. Ölkənin daxili və xarici siyasətindəki inamlı uğurlar Sizin adınızla ayrılmaz surətdə bağlıdır.

Böyük məmnuniyyətlə vurğulamaq istəyirəm ki, hazırda Türkmənistan ilə Azərbaycan Respublikası arasında münasibətlər yeni məzmun kəsb etməkdədir. Bu yaxınlarda Sizin Türkmənistana rəsmi səfəriniz qardaş xalqlarımız arasında dostluq tellərinin möhkəmlənməsi, ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığının dərinləşməsi yolunda mühüm mərhələ oldu. Qəti əminəm ki, bizim birgə səylərimizlə Türkmənistan-Azərbaycan qarşılıqlı əlaqələri xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq, habelə qardaş Azərbaycan Respublikası xalqının rifahı naminə bütün təşəbbüslərinizdə və səylərinizdə yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

---

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq. Zati-alinizə möhkəm cansağlığı, rifah və xoşbəxtlik diləyirik.

Fürsətdən istifadə edərək, yarandığı gündən etibarən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Sizin sayənizdə cəmi altı il ərzində dünyada tanınmış təşkilatlardan birinə çevrilib. Biz qəti əminik ki, Sizin dəstəyinizlə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi daha da inkişaf edəcək və Azərbaycanın milli qürur mənbəyi kimi, eləcə də sülhün, dözümlülüyün, dialoqun və qarşılıqlı anlaşmanın təşviqi üçün bir platforma olaraq fəaliyyət göstərəcəkdir.

Cənab Prezident, xahiş edirik Sizə olan yüksək ehtiramımızı qəbul edəsiniz. Sizinlə VII Qlobal Bakı Forumunda görüşümüzü səbirsizliklə gözləyirik.

*Səmimiyyətlə,*

***Vayra Vike-FREYBERQA,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti***

***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti***

***Marianna VARDİNOYANNİS,***
***ELPİDA Assosiasiyasının prezidenti, UNESCO-nun xoşməramlı səfiri***

***Əmr MUSA,***
***2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının baş katibi***

***Boris TADİÇ,***
***2004-2012-ci illərdə Serbiyanın Prezidenti***

***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti***

***Zlatko LAQUMDZİYA,***
***2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri***

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti***

***Rosen PLEVNELİYEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti***

***Katerina YUŞŞENKO,***
***2005-2010-cu illərdə Ukraynanın birinci xanımı***

***Jan BADERŞNEYDER,***
***2000-2013-cü illərdə "Exxon Mobil" şirkətinin vitse-prezidenti***

***Eka TKEŞELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini***

***Noelen HEYZER,***
***2007-2015-ci illərdə BMT baş katibinin müavini***

# Prezident qayğısının bariz təcəssümü



### Əhalinin rifah halının daha da yüksəldilməsi İlham Əliyevin sosial siyasətinin prioritetidir

Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünə nail olmaq, daxili siyasətin sosialyönümlüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını yaxşılaşdırmaqdır.

İnkişaf etmiş, yaxud inkişaf etməkdə olan ölkələr xalqlarının sosial rifahı yüksək olan dövlət qurmağı hədəf kimi qarşılarına məqsəd qoymuş, bunu öz konstitusiyalarında, qanunlarında təsbit etmişlər.

Azərbaycanda da dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi müəyyənləşdirir və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

### Vətəndaşının maraqlarını hər şeydən üstün tutan dövlət

Bu gün əhalisinin sosial müdafiəsinin təmin edilməsi Azərbaycan dövlətinin qarşısında duran strateji vəzifələrdən biridir. Yəni sosial siyasət dövlət siyasətinin prioritetidir.

*Ardı 3-cü səh.*

# Moskva-Yerevan münasibətləri sürətlə pisləşir

## Ermənistan yeni daxili və xarici problemlər məngənəsindədir

Parlament seçkilərində məlum qələbəsindən sonra Ermənistan baş nazirinin səlahiyyətlərini icra edən Nikol Paşinyan yenidən əsas diqqətini özünə potensial rəqib saydığı şəxslərin sıradan çıxarılmasına yönəldib. Bu sırada ilk növbədə sabiq prezident Serj Sarkisyan dönəmində hakimiyyətdə yer alan yüksək vəzifəli şəxslər gəlir. Paşinyanı narahat edən əsas məqam isə böyük maliyyə imkanlarına malik bu şəxslərin sonradan onun üçün yarada biləcəyi problemlərdir.

### Çox sayda oliqarxın həbsi gözlənilir

Məhz belə bir vaxtda, erməni mediasının məlumatına görə, Ermənistanın istintaq komitəsinin antirəqabət fəaliyyəti faktı üzrə açılan cinayət işi çərçivəsində apardığı araşdırmalar nəticəsində Ermənistan Polisinin keçmiş rəisi, general-polkovnik Vladimir Qasparyanın öz vəzifəsindən sui-istifadəyə və siyasi məqsədli şantaja əl atdığı aşkarlanıb.

Qeyd olunur ki, Ermənistan Nəqliyyat Nazirliyinin 2008-ci və 2009-cu illərdə verdiyi lisenziyaya əsasən "Kinq delyuks" və "Trans komfort" şirkətləri Abovyan-Yerevan-Abovyan və Çarençavan-Yerevan-Çarençavan istiqamətlərində ictimai nəqliyyatla sərnişinlərin müntəzəm daşınmasına icazə alıb. Lakin onlara mane olmaq üçün "Haqik Sarukyan" xeyriyyə fondunun əməkdaşları 2012-2016-cı illər ərzində eyni marşrut xətləri üzrə tələbələrin pulsuz daşınmasını həyata keçirib və nəticədə "Kinq delyuks" və "Trans komfort" şirkətləri müflis olublar və "Multi avtotrans" şirkətinin nəzarətinə keçiblər.

O zaman Ermənistan Polisinin rəisi olan Vladimir Qasparyan öz səlahiyyətlərindən sui-istifadə edərək məsələyə qarışmağa və "Kinq delyuks" şirkətinin rəhbərinə kömək etməyə söz verib. Bunun əvəzində isə tələb edib ki, şirkət parlament seçkilərində Serj Sarkisyanın sədrlik etdiyi "Respublika" partiyasını dəstəkləsin. Nəticədə qarşılıqlı razılıq əldə olunub və Qasparyan hətta şirkətə məxsus nəqliyyat vasitələrinin yol hərəkəti qaydalarını pozmasına göz yumulmasına və "Haqik Sarukyan" fondunun pulsuz sərnişindaşımalarına polis tərəfindən ciddi əngəl yaradılmasına dair göstəriş verib. Əldə edilən bu kimi faktlar əsasında Ermənistan Polisinin keçmiş rəisi Vladimir Qasparyana qarşı Cinayət Məcəlləsinin 308-ci maddəsinin 2-ci bəndi üzrə cinayət işi açılıb. Bütün bunlar o deməkdir ki, Sarkisyan komandasının üzvü olan daha bir oliqarx tezliklə həbsə atılacaq.

### "Koçaryan azadlığa çıxan kimi Avropa ölkələrinin birindən siyasi sığınacaq istəyəcək"

Ümumiyyətlə, Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın ardınca yaxın tezlikdə sabiq hakimiyyətə xidmət edən çox sayda erməninin həbsə atılması gözlənilir. "Joxovurd" qəzeti yazır ki, artıq sabiq məmurların çoxu ölkədən qaçır: "Hətta qeyd olunur ki, Koçaryan özü də azadlığa çıxan kimi Avropa ölkələrinin birindən siyasi sığınacaq istəyəcək. Nəşrin iddiasına görə, o, Ermənistanı tərk edərək Avropa ölkələrinin birinə sığınmaq istəyir. Amma indi belə görünür ki, Robert Koçaryanın ardınca Serj Sarkisyanın da həbsi qaçılmaz olacaq. Özü də Sarkisyanın siyasi dayaqlarının sürətlə sarsılması bunun üçün yeni imkanlar yaradır. Belə ki, Ermənistanın keçmiş baş naziri Karen Karapetyan "Respublika" partiyasının sıralarından ayrılıb".

*Ardı 7-ci səh.*

AZƏRBAYCAN www.azerbaijan-news.az

## Azərbaycan Respublikasının “Diplomatik xidmətə verilən töhfəyə görə” medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12, I kitab, maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311; № 10, maddə 1771; № 11, maddə 1962; № 12, I kitab, maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190) 2-ci maddəsində “Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)” yubiley medalı;” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Diplomatik xidmətə verilən töhfəyə görə” medalı;”.

**Maddə 2.** “Diplomatik xidmətə verilən töhfəyə görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” təsdiq edilsin *(əlavə olunur).*

**Maddə 3.** “Diplomatik xidmətə verilən töhfəyə görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin *(əlavə olunur).*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Siz ölkədə sülhü və firavanlığı təmin edən görkəmli siyasi xadim kimi haqlı olaraq həmvətənləriniz arasında böyük hörmət və beynəlxalq aləmdə yüksək nüfuz qazanmısınız.

Rusiya ilə Azərbaycan arasında hüquq bərabərliyi və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan müttəfiqlik əlaqələrinin dərinləşməsinə, Müstəqil Dövlətlər Birliyi çərçivəsində səmərəli əməkdaşlığa Sizin şəxsi töhfənizi yüksək qiymətləndiririk.

Ümidvarıq ki, Rusiya-Azərbaycan strateji tərəfdaşlığı ölkələrimizin xalqlarının rifahı, Qafqaz-Xəzər regionunda təhlükəsizliyin və sabitliyin təmin edilməsi naminə bundan sonra da inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq, ali dövləti vəzifənizdə uğurlar, Azərbaycan xalqına isə sülh və tərəqqi arzu edirəm.

Sizə yüksək ehtiramıma əmin ola bilərsiniz.

*Hörmətlə,*

***Valentina MATVİYENKO,***
***Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri***

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Həyatınız qurucu, xeyirxah işlərlə zəngin olsun. Hər yeni gün Sizə uğur və xoş əhvali-ruhiyyə gətirsin, Sizin üçün yeni perspektivlər açsın. Yaxınlarınız arasında həmişə əmin-amanlıq, məhəbbət və qarşılıqlı anlaşma hökm sürsün.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və həyat yolunuzda yeni zəfərlər diləyirəm.

*Hörmətlə,*

***İqor ORLOV,***
***Rusiya Federasiyasının Arxangelsk vilayətinin qubernatoru***

## “Azərbaycan Respublikasının “Diplomatik xidmətə verilən töhfəyə görə” medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1289-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının “Diplomatik xidmətə verilən töhfəyə görə” medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1289-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının “Diplomatik xidmətə verilən töhfəyə görə” medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. “Diplomatik xidmətə verilən töhfəyə görə” Azərbaycan Respublikasının medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının xarici işlər nazirinə verilsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının “Diplomatik xidmətə verilən töhfəyə görə” medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Diplomatik xidmətə verilən töhfəyə görə” Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

1.0. “Diplomatik xidmətə verilən töhfəyə görə” Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdakı xidmətlərinə görə təltif edilirlər:

1.0.1. diplomatik xidmət sahəsində səmərəli fəaliyyətə görə;

1.0.2. beynəlxalq əməkdaşlıq sahəsində əlaqələrin inkişafında və möhkəmləndirilməsində göstərilən xidmətlərə görə;

1.0.3. sülhün və xalqlar arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinin təşviqinə görə;

1.0.4. Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsinə verilən əhəmiyyətli töhfəyə görə;

1.0.5. Azərbaycan Respublikasının beynəlxalq aləmdə ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafında göstərilən xidmətlərə görə;

1.0.6. Azərbaycan dilinin və mədəniyyətinin təbliğinə görə;

1.0.7. xaricdə yaşayan azərbaycanlılara dəstək məqsədilə həyata keçirilmiş layihələrə görə.

**Maddə 2. Təltif edən orqan**

“Diplomatik xidmətə verilən töhfəyə görə” Azərbaycan Respublikasının medalı ilə bu əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Diplomatik xidmətə verilən töhfəyə görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Diplomatik xidmətə verilən töhfəyə görə” Azərbaycan Respublikası medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Diplomatik xidmətə verilən töhfəyə görə” Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) diametri 36 mm olan, qızıl suyuna çəkilmiş dairəvi bürünc lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfi iki çevrə ilə konturlanmışdır. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca “AZƏRBAYCAN RESPUBLİKASI” sözləri, aşağı qövs boyunca “DİPLOMATİK XİDMƏTƏ VERİLƏN TÖHFƏYƏ GÖRƏ” sözləri yazılmışdır. Yazıların arasında, sol və sağ tərəflərdə səkkizguşəli ulduz yerləşdirilmişdir.

2.2. Medalın daxili çevrəsinin mərkəzindən aşağı yer kürəsinin təsvirini əks etdirən meridianlar və paralellər təsvir edilmişdir. Yer kürəsinin təsvirinin alt hissəsindən sol və sağ tərəflərdə qövs boyunca daxili dairənin yuxarı tərəfinə doğru dəfnə yarpaqlarından ibarət çələng yerləşdirilmişdir. Yer kürəsinin təsvirinin üst tərəfində, sol və sağ tərəfdəki çələngin arasında aypara və ulduz təsvir edilmişdir. Medalın ön tərəfində bütün yazılar və təsvirlər relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.2. Medalın arxa tərəfinin səthi hamar, yazılar isə relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçüdə beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin üzərində hər birinin eni 11 mm olmaqla, Azərbaycan Respublikası Dövlət bayrağının rənglərini əks etdirən yaşıl, qırmızı və mavi rənglərdə şaquli zolaqlar təsvir edilmişdir. Xara lentin kənarlarında və Azərbaycan Respublikası Dövlət bayrağının rənglərinin arasında hər birinin eni 1 mm olan dörd qızılı şaquli zolaq təsvir edilmişdir.

4.3. Xara lentin yuxarı hissəsinə üzərində relyefli aypara, ulduz və lent təsvir edilmiş 40 mm x 5,5 mm ölçülü qızıl suyuna çəkilmiş bürünc lövhə bərkidilir.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçüdə qəlib əlavə edilir. Qəlibin mərkəzinə diametri 8 mm olan, üzərində qızılı rəngdə aypara və ulduz təsvir edilmiş dairəvi lövhə bərkidilir.

### “Diplomatik xidmətə verilən töhfəyə görə” Azərbaycan Respublikası medalı




## Yüksəkgərginlikli elektrik verilişi xətlərinin yenidən qurulması və yaxşılaşdırılması tədbirlərinin həyata keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

İstehsal olunan elektrik enerjisinin ötürülməsində və istehlakçılara çatdırılmasında itkilərin azaldılması və elektrik şəbəkələrinin sabit fəaliyyətinin təmin edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Qobu” yarımstansiyası üçün əlaqələndirici elektrik verilişi xəttinin tikintisi, 110 kV-luq elektrik verilişi xətlərinin və naqillərin yenilənməsi və əsaslı təmiri işlərinin görülməsi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinə nizamnamə kapitalının artırılması üçün ilkin olaraq 10,0 (on) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2018-ci il*

## Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində olan dövlət qoruqları Azərbaycanın tarixi-mədəni irsinin nadir nümunələrindəndir. Bu irsi qoruyub gələcək nəsillərə çatdırmaq olduqca böyük əhəmiyyət kəsb edir.

Qoruqların ərazisində mədəni irsin qorunmasını və saxlanılmasını, onların turizm potensialından səmərəli istifadəni təmin etmək, həmçinin dövlət-özəl tərəfdaşlığına şərait yaratmaq, qoruqların dövlət büdcəsindən asılılığını azaltmaq və dayanıqlı inkişafına nail olmaq üçün bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsinə və vahid idarəetmə sisteminin tətbiqinə zərurət yaranmışdır.

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində olan dövlət qoruqlarının idarə edilməsi məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzi” (bundan sonra - Mərkəz) yaradılsın.

2. Müəyyən edilsin ki, Mərkəz Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində olan dövlət qoruqlarının ərazilərində yerləşən tarixi, maddi və qeyri-maddi mədəni irsə aid elementlərin, abidələrin elmi, tarixi və mədəni cəhətdən öyrənilməsinin, təbliğinin, qorunub saxlanmasının, inkişafının və onlardan məqsədyönlü istifadənin təmin edilməsi, qoruqların turizm potensialının artırılması sahəsində fəaliyyətlə məşğul olan publik hüquqi şəxsdir.

3. Mərkəzdə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.1.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Mərkəzin nizamnaməsinin təsdiqi və Mərkəzin nizamnamə fondunun miqdarının müəyyən edilməsi;

3.2. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə:

3.2.1. bu fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. Mərkəzin nizamnaməsini və nizamnamə fondunun miqdarını Azərbaycan Respublikası Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

4.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.5. Mərkəzin nizamnamə fondunun formalaşdırılması və fəaliyyətinin təşkili ilə əlaqədar məsələləri həll etsin;

4.6. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2018-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə”də və 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 162; 2005, № 9, maddə 797; 2006, № 5, maddə 400; 2007, № 4, maddə 323, № 12, maddə 1246; 2008, № 11, maddə 972; 2009, № 10, maddə 780, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2013, № 2, maddə 111, № 7, maddə 806; 2016, № 6, maddə 1038; 2017, № 2, maddə 183, № 5, maddə 842, № 10, maddə 1783) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 11.23-2 - 11.23-4-cü bəndlər əlavə edilsin:

11.23-2. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq, aksiz markalarının hazırlanmasını, onların satışını və uçotunu təşkil etmək, habelə istehsalçıların və idxalçıların aksiz markaları ilə təchiz olunmasını təmin etmək;

11.23-3. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq, məcburi nişanlamanın hazırlanmasını, onların vergiödəyicilərinə verilməsini və uçotunu təşkil etmək, habelə istehsalçıların və idxalçıların məcburi nişanlama ilə təchiz olunmasını təmin etmək;

11.23-4. Azərbaycan Respublikasının “Dini etiqad azadlığı haqqında” və “Dərman vasitələri haqqında” qanunlarına uyğun olaraq nəzarət markalarının hazırlanmasını təmin etmək;”.

2. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61, № 7, maddə 533, № 10, maddə 780, № 12, maddə 983; 2010, № 2, maddələr 77, 80; 2011, № 2, maddə 85; 2015, № 2, maddə 108, № 9, maddə 988; 2016, № 9, maddə 1479; 2017, № 5, maddə 771, № 6, maddə 1081; 2018, № 1, maddə 47, № 3, maddə 450, № 5, maddə 912; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 399 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə”nin 8.19-cu və 8.19-1-ci bəndləri ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Aksiz markalarının hazırlanmasını, satışını və uçotunun aparılmasını Azərbaycan Respublikası Vergilər Nazirliyinin təşkil etməsinə dair tənzimləmə qüvvəyə minənədək həmin vəzifələrin həyata keçirilməsi bu fərman qüvvəyə mindiyi günədək mövcud olan normativ hüquqi aktların tələblərinə uyğun olaraq həyata keçirilsin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2018-ci il*

# Prezident qayğısının bariz təcəssümü

## Əhalinin rifah halının daha da yüksəldilməsi İlham Əliyevin sosial siyasətinin prioritetidir



Əvvəli 1-ci səh.

Bunu dəyərləndirərkən Prezident İlham Əliyev qeyd edib ki, sosial siyasət həmişə prioritet olub və bundan sonra da olacaq. Bütün atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi insanların daha da yaxşı yaşamaları məqsədi daşıyır".

Azərbaycanın sosial dövlət quruculuğu sahəsində əldə etdiyi zəngin təcrübə analoji inkişaf yoluna yeni qədəm qoymuş digər ölkələr üçün model rolunu oynaya bilər. Bu modelin unikallığı məhz ondan ibarətdir ki, yeni mülkiyyət formalarının yaranmasına, sahibkarlığın daha sürətli inkişafına yönəlmiş kompleks tədbirlər sistemi əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarını inkar etmir. Aztəminatlı təbəqənin mənafeyi mütləq nəzərə alınır və ölkəmizdə bazar iqtisadiyyatının inkişafı üçün atılan hər bir addım bu təbəqənin maraqları ilə uzlaşdırılmaqla həyata keçirilir.

### Dövlətin sosial qayğısı real statistik göstəricilərdə

Azərbaycan dövlətinin sosial qayğısı cəmiyyətin bütün təbəqələrini əhatə edir. Vətəndaşın maraqları, onun rifahı daim diqqət mərkəzində saxlanılır. Bunu statistik göstəricilərə nəzər yetirdikdə aydın şəkildə görə bilərik. Son 15 ildə -

- Maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb;
- yoxsulluq 50 faizdən 5,4 faizə düşüb;
- 3100-dən çox məktəb tikilib və təmir edilib;
- 640-dan çox xəstəxana tikilib və ya yenidən qurulub;
- 290 minədək məcburi köçkün yeni evlərlə, mənzillərlə təmin edilib;
- Qarabağ müharibəsi əlillərinə 6144 avtomobil verilib;
- 1279 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər tikilib;
- ölkədə 1,5 milyona yaxın yeni iş yeri açılıb.

### Bu il 5800 məcburi köçkün, 626 şəhid ailəsi yeni evlərlə təmin edilib

Dövlət aztəminatlı ailələrin, şəhid ailələrinin, Qarabağ əlillərinin, məcburi köçkünlərin mənzil-məişət problemlərinin həlli üçün ardıcıl tədbirlər görür və bu sahədə neqativ halların tam aradan qaldırılması istiqamətində ciddi addımlar atır.

Ötən il 12 min, bu il isə 20 min məcburi köçkün (5800 ailə) yeni evlərlə təmin edilib. 2017-ci ildə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil və şəhid ailələrindən olan 315 nəfər mənzil və fərdi evlə təmin ediliblər.

Prezident İlham Əliyevin 2 avqust 2018-ci il tarixli sərəncamı ilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün bu il əlavə olaraq minimum 300 mənzilin alınması üçün 20 milyon manat vəsait ayrılıb. Bu da cari ildə Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə verilməsi nəzərdə tutulan mənzillərin sayının 2,4 dəfə artırılmasına imkan yaradıb.

Bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il ən azı 800 mənzil veriləcək.

### 2018-ci ildə Qarabağ müharibəsi əlillərinə 265 avtomobil verilib

Bundan başqa Qarabağ müharibəsi əlilləri dövlət tərəfindən minik avtomobilləri ilə təmin olunurlar. Bu il 265 nəfər əlilə avtomobil verilib. Ötən il əlilliyi olan şəxslərə 33 min ədəd protez-ortopedik məmulat və reabilitasiya vasitəsi, tibbi göstərişi olan əlillərə 1193 ədəd əlil arabası verilib, 39,8 min nəfərə bərpa xidməti göstərilib.

Prezident təqaüdü ilə yanaşı, müharibə əlillərinin böyük əksəriyyəti əlilliyə görə əmək pensiyası, qalan bir qismi isə əlilliyə görə müavinət alır. Eyni zamanda müharibə əlillərinin uşaqlarına aylıq sosial müavinət verilir.

Həm şəhid ailələrinin, həm də Qarabağ müharibəsi əlillərinin uşaqlarının dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli təhsil haqları dövlət büdcəsi hesabına ödənilir. Şəhid ailələrinə ayda 242 manat Prezident təqaüdü verilir. Əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə kommunal, nəqliyyat və digər xidmətlər üçün aylıq sosial müavinət verilir.

Milli Qəhrəmanlara (və ya həlak olanların ailələrinə) aylıq 1500 manat Prezident təqaüdü ödənilir. Milli qəhrəmanların ailə üzvlərinin əmək pensiyasına hər ay 110 manat əlavə edilir.

### "Məzun evi"ndə 209 nəfər kimsəsiz uşaq yerləşdirilib

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılmış dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunları üçün "Məzun evi" sosial müəssisəsinə bu kateqoriyadan olan 209 nəfər yerləşdirilib və onlar üçün həmin müəssisədə xalça və tikiş sexləri yaradılaraq iş yerləri açılıb.

1080 nəfərə tam dövlət təminatında olmaqla sosial müəssisələrdə, 11 min nəfərə isə evlərində sosial xidmət göstərilib, 7 min 700 nəfər əlilliyi olan şəxs sanatoriya-kurort müalicəsinə və istirahət mərkəzlərinə göndərilib. 29 qeyri-hökumət təşkilatı ilə birlikdə icra edilən 61 layihə üzrə 4100 nəfər çətin həyat şəraitində olan uşaq sosial müdafiə tədbirlərinə cəlb olunub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə əhalinin sosial rifahının yüksəldilməsi və sosial infrastrukturun ən müasir standartlara uyğun yenidən qurulması istiqamətində məqsədyönlü siyasət həyata keçirilib və mühüm uğurlar əldə olunub. Sosial məsələlərin həlli ilə bağlı ölkədə çoxsaylı dövlət proqramları, böyük layihələr həyata keçirilib. Regionların sosial-iqtisadi inkişafına dair üç dövlət proqramı, həmin sənədlərə çoxsaylı əlavələr qəbul olunub və icra edilib.

Əlbəttə ki, bu siyasətin əsas mahiyyəti yoxsulluğu aradan qaldırmaq, aztəminatlı əhali qruplarının dayanıqlı təminat sistemini yaratmaq, bununla da ölkə əhalisinin həyat şəraitinin uzunmüddətli yaxşılaşdırılmasına nail olmaqdır. Son 15 ildə maaşların, pensiyaların, təqaüdlərin, sosial müavinətlərin dəfələrlə artması, işsizlik probleminin getdikcə aradan qaldırılması bunları bir daha təsdiqləyir. Onu da əlavə edək ki, hazırda Azərbaycanda işsizlik 5 faizdir.

### Dövlət başçısının növbəti humanist təşəbbüsü

Son günlər geniş müzakirə mövzusuna çevrilən şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi dövlət başçısının növbəti humanist təşəbbüsü kimi qiymətləndirilir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 19 aprel tarixli 1 nömrəli fərmanına əsasən qeyd olunan şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulub.

2897 şəhid üzrə 3856 vərəsəyə birdəfəlik ödəmə verilməsi barədə qərar qəbul edilib. Birdəfəlik ödəmənin verilməsindən ötrü 2018-ci il üçün 58 milyon, 2019-cu il üçün 50 milyon manat ayrılıb. Ümumiyyətlə, 10 minə yaxın şəhid ailəsinə dövlət tərəfindən 11 min manat vəsait verilməsi nəzərdə tutulub.

Artıq Milli Məclisdə təsdiq olunan 2019-cu ilin dövlət büdcəsi müasir makroiqtisadi şəraitin yaratdığı yeni iqtisadi təlatümləri və reallıqları, habelə ölkəmizin üzləşdiyi strateji çağırışları nəzərə alır, Prezident İlham Əliyevin ənənəvi olaraq sosialyönümlü siyasətinin davam etdirilməsi üçün müvafiq maliyyə təminatını yaradır. Gələn ilin büdcəsinin başlıca istiqamətləri isə ölkə iqtisadiyyatının inkişaf tempinin qorunub saxlanmasını, sosial-iqtisadi islahatların daha dinamik şəkildə davam etdirilməsini, əhalinin maddi rifahının təmin olunmasını və sosial şəraitinin yaxşılaşmasını və digər tədbirləri özündə əks etdirir.

### 5 milyon manat bayram hədiyyəsi

Dövlət başçısının son sərəncamı da bir daha təsdiqlədi ki, cənab İlham Əliyev hər zaman xalqının sosial rifah halının yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayır. Bu ay ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 100 manat məbləğində birdəfəlik yardım ödənilməsi bunun bariz nümunəsidir.

Qeyd edək ki, birdəfəlik yardımın maliyyələşdirilməsi üçün 2018-ci il dövlət büdcəsində ünvanlı dövlət sosial yardımı və sosial müavinətlər üçün nəzərdə tutulmuş vəsaitin xərclənməmiş qalıq hissəsindən 5 milyon manat vəsait ayrılıb.

Əhalinin aztəminatlı hissəsi dövlətin sosial siyasətində həmişə diqqət mərkəzində olub. Hələ 2003-cü ilin fevralında yoxsulluğun azaldılması haqqında ilk dövlət proqramı təsdiqlənib, 2008-ci ildə növbəti belə proqram qəbul edilib.

2017-ci ildən etibarən aztəminatlı ailələrə aktivlər verilməsi onların məşğulluğunun təmin edilməsi istiqamətində mühüm addım olub. 2018-ci ildə 7 min belə ailənin məşğulluq proqramına cəlbi nəzərdə tutulmuşdu.

### Xalqa hesabat verməklə nümunə göstərən lider

Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeçiliyində yaradılmış "Ailə Biznesinə Asan Dəstək" (ABAD) mərkəzləri də dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək layihələri həyata keçirir. Bu ilin avqustunda yaradılan "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" (DOST) publik hüquqi şəxsi əhalinin məşğulluğuna, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, şəffaflığın artırılmasına töhfə verir.

Göründüyü kimi, Azərbaycan Prezidentinin əsas məqsədlərindən biri əhalinin sosial rifah halını ən yüksək səviyyəyə çatdırmaq, ölkəmizi dünyanın inkişaf etmiş dövlətinə çevirmək, sosial rifah dövləti səviyyəsinə yüksəltməkdir.

Cənab İlham Əliyev həm də bütün zamanlarda xalqa xidmətlə, xalqa hesabat verməklə nümunə göstərib. Dövlət başçısının regionların sosial-iqtisadi inkişafına dair birinci dövlət proqramının icrasına həsr olunmuş 5 fevral 2014-cü il tarixli konfransda söylədiyi - "xalqın birinci xidmətçisi mənəm və bütün dövlət məmurları belə işləməlidir" fikirləri bir daha sözlə əməlin vəhdət təşkil etdiyini təsdiqləyən real faktdır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Cəmşid Naxçıvanski adına Hərbi Liseydə əsaslı təmir-tikinti işlərinin gedişi yoxlanılıb





Dekabrın 20-də müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə əsaslı təmir-tikinti prosesinin həyata keçirildiyi obyektlərə baxış keçirib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Z.Həsənov inşaatla bağlı verilən tapşırıqların icrasını yoxlayıb, yerinə yetiriləcək işlərin keyfiyyətlə və vaxtında başa çatdırılması ilə bağlı konkret göstərişlər verib.

Kursantların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasının vacibliyini vurğulayan general-polkovnik Z.Həsənov gələcək zabitlər üçün ən yüksək standartlara cavab verən xidmət şəraitinin yaradılması və bir sıra digər məsələlərin həllinə dair müvafiq tapşırıqlar verib.

# Bakıda keçirilən forumda təhsilin gələcəyi ilə bağlı müzakirələr aparılıb





Bakıda keçirilən "Azərbaycanda İnsan Kapitalı üzrə Forum" işini dekabrın 20-də davam etdirib.

AZƏRTAC xəbər verir ki, Dünya Bankı ilə Azərbaycan hökumətinin müvafiq qurumlarının birgə təşkil etdiyi tədbirdə təhsilin gələcəyi ilə bağlı təqdimatlar dinlənilib, müzakirələr aparılıb.

Forumda çıxış edən Dünya Bankının Azərbaycandakı ölkə ofisinin rəhbəri Navid Həsən Naqvi müasir dünyada təhsilin mühüm rolundan danışıb, bu sahənin inkişafı ilə bağlı fikirlərini bildirib.

Təhsil naziri Ceyhun Bayramov Azərbaycan Prezidenti İlham Əliyevin təhsilə daim xüsusi önəm verdiyini vurğulayıb. Son illərdə təhsil sahəsində mühüm islahatların və layihələrin həyata keçirildiyini qeyd edən nazir qazanılan uğurlar barədə məlumat verib.

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın əhəmiyyətindən bəhs edən C.Bayramov bu proqramın təhsilin inkişafında müstəsna rol oynayacağını diqqətə çatdırıb.

Təhsil naziri Azərbaycanın xarici ölkələrin ali məktəbləri ilə birgə ikili diplom proqramları həyata keçirəcəyini söyləyib. Nazir bildirib ki, peşə təhsili inkişaf etmiş iqtisadiyyatın formalaşmasında mühüm rol oynayır. Son bir neçə ildə ölkəmizdə peşə təhsili alanların sayı xeyli artıb.

C.Bayramov ömür boyu təhsilin vacibliyini də vurğulayıb.

Sonra Dünya Bankının nümayəndəsi Harri Patrinosun təhsillə bağlı təqdimatı dinlənilib.

Forumda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verib. İnsan kapitalının yüksəldilməsi ilə bağlı fikirlərini bölüşən M.Abbaszadə təhsilin daha çox karyerayönümlü olmasının əhəmiyyətini diqqətə çatdırıb.

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri ölkəmizdə təhsil sahəsində səmərəli tədbirlərin həyata keçirildiyini söyləyib.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov dünyada, o cümlədən respublikamızda ali təhsilin cəmiyyətin inkişafına uyğunlaşdırılması üçün ciddi addımlar atıldığını bildirib.

Sonra mövzu ilə bağlı geniş müzakirələr aparılıb.

# Azərbaycan-Türkiyə 11-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası başa çatıb



Ankarada Azərbaycan-Türkiyə 11-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası işini başa çatdırıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın vəziyyəti, inkişaf perspektivləri, o cümlədən ölkələrimizin orduları arasında mövcud olan dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi məsələləri müzakirə edilib. Eləcə də 2019-cu ildə qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün əsas istiqamətlər müəyyənləşdirilib və fəaliyyət planı razılaşdırılıb. Görüşün sonunda 11-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclasının yekunlarına dair, həmçinin "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi tibb sahəsində təhsil və əməkdaşlıq haqqında" protokollar imzalanıb.

Qeyd edək ki, iclasın Azərbaycan tərəfindən həmsədri müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev, Türkiyə tərəfindən isə Baş Qərargahın ikinci rəisi korpus generalı Mətin Gürakdır.

Bu formatda 12-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclasının 2019-cu ilin sonunda Azərbaycanda keçirilməsi planlaşdırılır.

# "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin növbəti qurultayı keçirilib

Dekabrın 20-də "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin növbəti qurultayı keçirilib.

AZƏRTAC xəbər verir ki, toplantıda qurumun ötən dövrdəki fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı müzakirələr aparılıb. Həmçinin icmanın yeni sədri və idarə heyəti seçilib.

İctimai Birliyin sədri Bayram Səfərov qurumun ötən dövrdəki fəaliyyəti barədə danışıb. Bildirib ki, İctimai Birlik Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Ermənistanın işğalçılıq siyasəti və erməni separatizminin beynəlxalq aləmdə ifşası istiqamətində səylərini davam etdirir. Münaqişənin tarixi kökləri və onun həlli ilə bağlı Prezident İlham Əliyevin yürütdüyü siyasət, həyata keçirilən genişmiqyaslı tədbirlər barədə maarifləndirmə işləri aparılıb. Ermənistanın təcavüzü nəticəsində məcburi köçkün düşmüş vətəndaşlarımızın hüquq və mənafeləri ilə bağlı müxtəlif ölkələrlə, beynəlxalq təşkilatlarla əməkdaşlıq edilib. Müntəzəm olaraq Xocalı soyqırımı, Qaradağlı faciəsi, Azərbaycan ərazilərinin işğalı ilə əlaqədar xarici ölkələrin parlamentlərinə, beynəlxalq təşkilatlara müraciətlər edilir.

İctimai Birliyin Əlaqələndirmə Şurasının sədri Elçin Əhmədov, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdullayev, deputatlar Flora Qasımova və Elman Məmmədov icmanın Dağlıq Qarabağ probleminin həlli istiqamətində həyata keçirilən dövlət siyasətinə verdiyi dəstəkdən danışıblar. Qeyd olunub ki, Prezident İlham Əliyevin ardıcıl və prinsipial mövqeyi sayəsində bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacaq.

Qurultayda təşkilati məsələlərə də baxılıb. Tural Gəncəliyev "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri, Elçin Əhmədov və Asif Cahangirov isə sədrin müavinləri seçiliblər.

Sonda qurultay iştirakçıları adından dünya ictimaiyyətinə ünvanlanan bəyanat qəbul olunub.

# Əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin tarixi xidmətlərinin üzə çıxarılmasında ulu öndər Heydər Əliyevin müstəsna rolu olub

Dekabrın 20-də Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) "Ümummilli lider Heydər Əliyevin Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin faşizmə qarşı mübarizədə tarixi xidmətlərinin üzə çıxarılmasındakı müstəsna rolu" mövzusunda tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyevin, DTX-nin əməkdaşlarının, təhlükəsizlik orqanları veteranlarının və DTX-nin Heydər Əliyev adına Akademiyasının kursantlarının iştirak etdikləri tədbir İkinci Dünya müharibəsində həlak olmuş həmvətənlərimizin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Sonra Azərbaycanın Dövlət himni səsləndirilib.

Tədbirdə qeyd olunub ki, şərəfli ömrünün 25 ilini təhlükəsizlik orqanlarına həsr edən ulu öndər Heydər Əliyev istər bu orqanlarda xidmət etdiyi, istərsə də Azərbaycan Respublikasının rəhbəri olduğu dövrdə xalqımız üçün taleyüklü əhəmiyyət daşıyan işlərə imza atıb. Bu ölçüyəgəlməz fəaliyyətin nümunələrindən biri də cəsur kəşfiyyatçı, antifaşist müqavimət hərəkatının görkəmli nümayəndəsi, əfsanəvi partizan, milyonlarla azərbaycanlının, eləcə də Mərkəzi və Cənub-Şərqi Avropa xalqlarının qəlbində silinməz izlər buraxmış Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin faşizmə qarşı mübarizədə tarixi xidmətlərinin üzə çıxarılmasıdır. Bütün maneələrə baxmayaraq, Mehdi Hüseynzadəyə layiq olduğu Sovet İttifaqı Qəhrəmanı fəxri adının ölümündən 13 il sonra verilməsində, ümumiyyətlə, Mixaylonun adının əbədiləşdirilməsində, onun göstərdiyi şücaət və rəşadətin təbliğində məhz ümummilli liderin müstəsna xidmətləri olub.

Dövlət Təhlükəsizliyi Xidmətinin arxiv fondlarında qorunub saxlanılan nadir sənədlərin tədqiqi göstərir ki, vaxtilə Azərbaycan SSR DTK-da yaradılmış və kapitan Heydər Əliyevin rəhbərlik etdiyi xüsusi əməliyyat-təhqiqat qrupunun böyük əziyyət və peşəkarlıqla topladığı materiallar, sorğular, rəylər və şahid ifadələri əsasında 1957-ci ilin yanvarında Mehdi Hüseynzadənin döyüş və qəhrəmanlıq fəaliyyətinə dair müfəssəl və təsirli arayış hazırlanıb. Azərbaycan SSR DTK-sı da həmin sənədi baxılması və Moskvaya təqdim olunması üçün Azərbaycan KP MK-ya göndərib.

Bundan sonra Mehdi Hüseynzadənin qəhrəmanlıq salnaməsinin ictimailəşdirilməsində əvəzsiz xidmətləri olan Heydər Əliyevin uzun illər ağır zəhməti hesabına toplanılan materiallar əsasında da tanınmış yazıçılar İmran Qasımov və Həsən Seyidbəyli "Uzaq sahillərdə" povestini yazıblar. Həmin əsər əsasında bu gün də maraqla izlənilən məşhur "Uzaq sahillərdə" bədii filmi çəkilib. Nəhayət, 1957-ci ilin aprelində SSRİ Ali Sovetinin Rəyasət Heyətinin fərmanı ilə Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verilib.

Ulu öndər Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbərlik edərkən yenidən Mehdi Hüseynzadənin xatirəsinin əbədiləşdirilməsi istiqamətində əməli işlər görüb, onun şərəfli xidmətlərinin İttifaq miqyasında tanınmasına nail olub və Bakıda möhtəşəm abidəsinin ucaldılmasına göstəriş verib. 1973-cü il mayın 9-da - Qələbə Günündə Mehdi Hüseynzadənin abidəsinin təntənəli açılışı olub. Tədbirdə iştirak edən dahi rəhbər Heydər Əliyev qəhrəmanın partizan hərəkatındakı fəaliyyətindən, keçdiyi mübariz döyüş yolundan söz açaraq deyib: "Mehdi Hüseynzadənin adı müasirlərimizin və gələcək nəsillərin hafizəsindən heç vaxt silinməyəcək".

Ümummilli liderin dövlətçilik siyasətini və azərbaycançılıq irsini uğurla davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev görkəmli sərkərdələrimizin, hərb xadimlərimizin, qəhrəmanlarımızın adlarının əbədiləşdirilməsinə və yubileylərinin dövlət səviyyəsində qeyd olunmasına xüsusi diqqət yetirir.

Prezident İlham Əliyevin Sloveniya Respublikasına rəsmi səfəri zamanı Novo Qoritsa şəhərində Mehdi Hüseynzadənin xatirə muzeyinin açılışında iştirakı, ictimaiyyətlə görüşdə geniş nitq söyləməsi ölkələrimiz arasında əlaqələrin genişlənməsinin, dostluq və qardaşlıq münasibətlərinin inkişafının təsdiqidir. Məhz bu dostluğun təməlində Mehdi Hüseynzadə kimi igid həmvətənimizin qəhrəmanlıqları dayanır. Sloveniyalılar da Azərbaycanın igid oğluna vəfa borcu olaraq Moribor şəhərində müharibə qurbanlarının xatirəsinə həsr edilən Dobrava memarlıq park kompleksinin ərazisində Xocalı soyqırımı qurbanlarına xatirə lövhəsi ucaldıblar.

Yüksək əxlaqi keyfiyyətlərə malik cəsur kəşfiyyatçı Mehdi Hüseynzadənin qəhrəmanlıqlarının gənc nəslin vətənə sədaqət ruhunda tərbiyə edilməsində xüsusi əhəmiyyətini nəzərə alan dövlət başçısı İlham Əliyev igid döyüşçünün anadan olmasının 100-cü ildönümünün qeyd edilməsi barədə 2018-ci il iyulun 23-də sərəncam imzalayıb.

Qeyd olunub ki, bu sərəncam dövlətimizin təhlükəsizliyinin, vətənimizin sərhədlərinin toxunulmazlığının keşiyində dayanan və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan Azərbaycan hərbçiləri üçün qəhrəmanlığa çağırış nümunəsi kimi qəbul edilir.

Sonra DTX-nin Heydər Əliyev adına Akademiyasının kursantları Mehdi Hüseynzadənin müharibə illərində vətənpərvərlik mövzusunda yazdığı şeirlərini söyləyiblər.

Tədbirin sonunda Mehdi Hüseynzadənin qəhrəmanlıq yolu və ümummilli lider Heydər Əliyevin bu məşhur həmyerlimizin misilsiz hərbi şücaətlərinin üzə çıxarılmasındakı müstəsna rolu barədə Azərbaycan Televiziyası tərəfindən hazırlanan sənədli film nümayiş etdirilib.

# Tanınmış idman jurnalisti Eldar İsmayılovun anadan olmasının 70 illik yubileyi qeyd edilib




Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının (AİJA) prezidenti, əməkdar jurnalist Eldar İsmayılovun anadan olmasının 70 illik yubileyi münasibətilə dekabrın 20-də Beynəlxalq Mətbuat Mərkəzində tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə yubilyarın həyat və yaradıcılığına dair videoçarx nümayiş etdirilib.

Azərbaycan Mətbuat Şurasının (AMŞ) Ahıl Jurnalistlər Məclisinin sədri Məzahir Süleymanzadə E.İsmayılovun ömrünün 52 ilini jurnalist peşəsinə həsr etdiyini vurğulayıb. E.İsmayılovun istedadlı jurnalistlərdən olduğunu, Azərbaycan mətbuatında fəallığı ilə seçildiyini deyən M.Süleymanzadə onun xidmətlərindən danışıb.

AMŞ-nin sədri Əflatun Amaşov ölkə mətbuatının tanınmış simalarından olan E.İsmayılovun istedadlı qələm sahibi kimi, yaradıcılıq enerjisi, zəhmətsevərliyi sayəsində cəmiyyətdə böyük hörmət qazandığını vurğulayıb. Bildirilib ki, onun rəhbərlik etdiyi AİJA ölkəmizdə nüfuzlu media qurumlarındandır. E.İsmayılov dünyanın və Avropanın idman jurnalistləri təşkilatlarının rəhbər qurumlarındakı səmərəli fəaliyyəti ilə ölkəmizin idman uğurlarının təbliğində yüksək fəallıq göstərir.

Milli Məclisin deputatları - Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Adil Əliyev, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov, eləcə də Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev, "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev, "Xalq qəzeti"nin əməkdaşı Tahir Aydınoğlu, şair-publisist Ramiz Məmmədzadə, yazıçı-dramaturq Aqşin Babayev, Ağdam rayonundan olan ağsaqqal Səlim Əzimov və başqaları çıxışlarında Eldar İsmayılovun Azərbaycan mətbuatında təqdirəlayiq fəaliyyətindən bəhs edib, onunla bağlı xatirələrini bölüşüblər.

Bildirilib ki, E.İsmayılov 1948-ci ildə Ağdam rayonunda ziyalı ailəsində dünyaya göz açıb. Orta məktəb illərində istedadı və bacarığı ilə diqqəti cəlb edən E.İsmayılov rəsm və fotolar çəkməkdə, divar qəzeti buraxılışı işində yüksək qabiliyyəti ilə seçilib. O, rayon qəzetinə məqalələr yazıb, idman, musiqi və poeziya ilə məşğul olub, texniki yaradıcılığa və bədii tərtibat məsələlərinə həvəs göstərib. Ağdam rayonunun istedadlı yeniyetmələrindən biri kimi tanınan E.İsmayılov qısa zamanda rayonun ictimai-mədəni həyatında fəal iştirak edən ziyalılardan birinə çevrilib. Bir müddət teleradionun Qarabağ bölgəsi üzrə müxbiri kimi fəaliyyət göstərən E.İsmayılov müharibə dövründə dəfələrlə qaynar nöqtələrdə olub, öz vəzifəsini uğurla yerinə yetirib. 1993-cü ildən məcburi köçkün həyatı yaşayan jurnalist qələmini yerə qoymayaraq erməni təcavüzünün ağır nəticələrini göstərmək üçün mübarizəsini davam etdirir. Onun təşəbbüsü ilə 1995-ci ildə Azərbaycan İdman Jurnalistləri Assosiasiyası yaradılıb, ölkəmizdə bir sıra beynəlxalq tədbir təşkil olunub.

Tədbirin sonunda yubilyar çıxış edərək yüksək diqqətə və xoş sözlərə görə minnətdarlığını bildirib.

DÖVLƏT BAŞÇISINA MİNNƏTDARLIQ

# Vətən sənə oğul dedi

## Sinəsini düşmən gülləsinə sipər edənlər heç vaxt unudulmurlar

Bütün yüksəkliklərdən ucada dayanan bir zirvə var. O, şəhidlikdir. Bu zirvəyə qalxmaq hər insana nəsib olmur. Ancaq gözlərini qırpmadan müqəddəs amallar uğrunda çarpışanlar, ölümün gözünə dik baxaraq vətən və xalq yolunda canından keçənlər bu zirvəyə ucala bilərlər. Necə ki, Qazaxda doğulub boya-başa çatmış və torpaqlarımızın bütövlüyü uğrunda canından keçmiş yüzlərlə gənc bu yolu seçməklə şəhidlik zirvəsinə ucalmışdır.



Dağlıq Qarabağ müharibəsi başlayandan indiyədək Qazax rayonu 285 şəhid vermişdir. Mənfur qonşularımızla 168 kilometr həmsərhəd olan bu rayonda həmin şəhidlərə böyük ehtiram göstərilməklə onların adlarının əbədiləşdirilməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Şəhidlərin adlarını əbədiləşdirmək üçün hər birinin adına küçələr verilməklə yanaşı, xatirələrinə bulaq kompleksləri də inşa edilir. Qazax rayonunda Milli qəhrəmanlardan Alı Mustafayevin, Şamoy Çobanovun, Mərfət Nəsibovun, Firuddin Şamoevin, aprel şəhidlərindən - kapitan Mühüd Orucovun, baş leytenant Elvin Namazovun, şəhid Orxan Əliyevin, Şahvələd Abbasovun və başqalarının xatirəsinə ehtiram göstərilərək bulaq kompleksləri ucaldılmışdır. Bu günlərdə isə daha bir şəhidin - Qoşqar Məqsəd oğlu Qurbanovun adına inşa edilmiş bulaq kompleksi istifadəyə verilmişdir. Rayonda sayca 10-cu olan bulağın açılış mərasimində çıxış edən rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov dövlət başçısı İlham Əliyev tərəfindən şəhidlərimizə və şəhid ailələrinə göstərilən hörmət və ehtiramdan danışmış, vətənimizin bütövlüyü uğrunda canından keçən şəhidlərin ailə üzvlərinə, həmçinin müharibə veteranlarına və əlillərinə böyük diqqət və qayğı göstərildiyini faktlarla diqqətə çatdırmışdır.

Cəbhə bölgəsində yerləşən Qazax rayonundan 7 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Respublikamızın hər yerində olduğu kimi bu rayonda da şəhidlərə xüsusi hörmət və ehtiramla yanaşılır. Şəhidlərin dəfn olunduqları qəbiristanlıqlar yenidən qurularaq əsl ziyarətgaha çevrilmişdir. Hətta bir neçə kənddə şəhidlərin xatirə kompleksi ucaldılmışdır. Rayon mərkəzində olan Şəhidlər xiyabanı isə tamamilə yenidən qurulmuş, ətrafında yaşıllıq salınmış, işıqlandırma qurğuları quraşdırılmışdır. Əlamətdar günlərdə məktəblilər bura gələrək vətənə sədaqət andı icir, müxtəlif ədəbi-bədii kompozisiyalar göstərir, vətənə, torpağa, sülhə aid şeirlər söyləyirlər. Söz yox ki, həyata keçirilən bütün bu tədbirlər gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində müsbət rol oynayır.

Rayon təhsil şöbəsi məktəblilərdə hərbi vətənpərvərlik hissinin gücləndirilməsi üçün maraqlı tədbirlər həyata keçirir. Bu yaxınlarda orta məktəblər arasında "Vətənimin müdafiəsinə hazıram!" mövzusunda olan idman yarışlarında yuxarı sinif şagirdləri öz doğma vətənlərini necə sevdiklərini bir daha nümayiş etdirmişlər.

Şəhid ailələri rayon icra hakimiyyətinin daim diqqət mərkəzindədir. Rayon rəhbərliyi tez-tez onlarla görüşlər keçirir, problemləri ilə maraqlanır, onların həlli üçün tədbirlər görür.

Qazax rayonunun sərhəd kəndlərində bu gün nisbi sakitlikdir. Azərbaycan Ordusunun əsgərləri sərhədlərimizin keşiyində ayıq-sayıq dayanmışlar. Sərhədyanı kəndlərdə yaşayan sakinlər düşmənin heç bir təxribatından çəkinmirlər. Onlar bilirlər ki, yüzlərlə şəhid vermiş qazaxlılar lazım gəlsə yenə də torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçməyə hazırdırlar. İndi respublikamızda uşaqdan böyüyə hamının bir istəyi var ki, o da tezliklə mənfur düşmənlərimizin işğalda saxladıqları torpaqlarımızı tərk etməsidir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bakıda özbək ədəbiyyatının klassiki, soydaşımız Maqsud Şeyxzadənin anadan olmasının 110 illiyi qeyd edilib

Dekabrın 20-də Beynəlxalq Mətbuat Mərkəzində özbək ədəbiyyatının klassiki, şair, dramaturq, tərcüməçi, soydaşımız Maqsud Şeyxzadənin anadan olmasının 110 illik yubileyinə həsr olunan tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin, Azərbaycanın "Kaspi" qəzeti və eyni adlı Təhsil Şirkətinin və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə reallaşan tədbirdə ssenari müəllifi və rejissoru Daşkənddə yaşayan soydaşımız Eldar Məmmədov olan "İki xalqın iftixarı" adlı sənədli film nümayiş etdirilib.

Tədbirdə Maqsud Şeyxzadənin ömür yolundan, zəngin yaradıcılığından, ana vətəni Azərbaycana bağlılığından danışılıb. Bildirilib ki, 1908-ci ildə Ağdaşda anadan olan Maqsud Şeyxzadə orta təhsilini bitirdikdən sonra Bakıda ali təhsil alıb. İlk şeirləri hələ 13 yaşında ikən "Kommunist" qəzetində dərc edilən şair 1928-ci ildən o dövrkü rejimin təzyiqi ilə Azərbaycandan sürgün olunub və həmin vaxtdan Özbəkistanı özünə ikinci Vətən seçən M.Şeyxzadə ömrünün sonunadək özbək ədəbiyyatını və elmini dərin məzmunlu əsərləri ilə zənginləşdirib.



Maqsud Şeyxzadənin yaradıcılığı, onun özbək ədəbiyyatına verdiyi töhfələrdən danışan natiqlər ədibin özbək xalqının qəhrəmanı Cəlaləddin Manquberdi, hökmdar Mirzə Uluqbəy kimi tarixi şəxsiyyətlərlə bağlı yaratdığı ölməz əsərlərlə özbək dramaturgiyasının əsasını qoyduğunu bildiriblər. Onun "Cəlaləddin Manquberdi", "Mirzə Uluqbəy" faciələri, "Daşkəndnamə", "Ağsaqqal" poemalarının oxucular tərəfindən rəğbətlə qarşılandığı qeyd edilib.




Özbək ədəbiyyatının "Şekspiri" adlandırılan Maqsud Şeyxzadənin qardaş xalqın ədəbiyyatının və ədəbiyyatşünaslığının inkişafındakı əvəzsiz xidmətləri vurğulanıb. Əlişir Nəvai haqqında ilk elmi məqalənin müəllifi olan Maqsud Şeyxzadənin bədii tərcümə işinin də yüksək bilicisi olduğunu deyən çıxışçılar onun yaradıcılığında Avropa və dünya klassiklərinin, eləcə də Azərbaycan ədəbiyyatının görkəmli simalarının əsərlərinin özbək dilinə tərcümə edildiyini qeyd ediblər.

Xüsusi olaraq diqqətə çatdırılıb ki, Maqsud Şeyxzadə elə bir həyat, elə bir ömür yaşayıb ki, bu tale iki qardaş xalqın yüzilliklər dolu ədəbi əlaqələr tarixinin canlı varisi, mənəvi körpüsü olub.

Öz fəaliyyəti ilə iki xalq arasında dostluq körpüsü yaradan dahi dramaturq Maqsud Şeyxzadə yaradıcılığına nəzər salan natiqlər onun dünya şöhrətli özbək şairi Əlişir Nəvai irsinin əsas tədqiqatçısı olduğunu söyləyiblər.

Sonda bir qrup şəxsə hər iki xalqın ədəbiyyatına verdiyi töhfələrə görə Mətbuat Şurasının diplomları təqdim edilib.

Tədbirdə, həmçinin Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi və Azərbaycanın "Kaspi" qəzeti və eyni adlı Təhsil Şirkətinin layihəsi əsasında dramaturgiyamızın tanınmış nümayəndəsi Hüseyn Cavidin özbək dilində çap olunmuş "Seçilmiş əsərlər"i iştirakçılara təqdim olunub.

# Nazirlər Kabineti 2019-cu ilin Novruz, Ramazan və Qurban bayramları ilə bağlı sərəncam qəbul edib

Dekabrın 19-da Azərbaycan Respublikasının Nazirlər Kabineti 2019-cu ilin Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında sərəncam qəbul edib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Novruz Məmmədovun imzaladığı sərəncamda deyilir: "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli Fərmanının 2-ci hissəsinə əsasən, 2019-cu il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı, iyunun 5, 6-sı Ramazan bayramı, avqustun 12, 13-ü Qurban bayramı günləri müəyyən edilərək qeyri-iş günü hesab olunsun".

# İnflyasiyanın səviyyəsi 2,3 faiz olmuşdur

Cari ilin yanvar-noyabr aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2017-ci ilin müvafiq dövrünə nisbətən 2,3, o cümlədən ərzaq məhsulları 1,9, qeyri-ərzaq mallarının 2,7, əhaliyə göstərilən ödənişli xidmətlər 2,6 faiz bahalaşmışdır.

Noyabr ayında isə oktyabr ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 0,6, o cümlədən ərzaq məhsullarının qiymətləri 1,2, qeyri-ərzaq mallarının qiymətləri 0,2, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 0,1 faiz artmışdır.

Ay ərzində düyünün, unun, qoyun ətinin, kolbasa məmulatlarının, balıq məhsullarının, süd məhsullarının, pendirin, yumurtanın, kərə, zeytun və qarğıdalı yağlarının , bananın, armudun, xiyarın, pomidorun, badımcanın, göy lobyanın, soğanın, kartofun, qəhvə, çay və kakonun, tütün məmulatının, spirtli içkilərin qiymətlərində bahalaşma, manna və qarabaşaq yarmasının, makaron məmulatlarının, limon, portağalın, naringinin, almanın, heyvanın, narın, xurmanın, kivinin, kələmin, göyərtinin, çuğundurun, yerkökünün, sarımsağın qiymətlərində ucuzlaşma müşahidə olunmuşdur. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş vermişdir.

Noyabr ayında qeyri-ərzaq mallarından geyimin, ayaqqabıların, mebel və ev əşyalarının, xalça və digər döşəmə örtüklərinin, minik avtomobilləri üçün ehtiyat hissələrinin, dəftərxana ləvazimatının, zərgərlik məmulatlarının qiymətləri artmış, kondisionerlərin, mobil telefonların, televizorların, fotoaparatların, planşet tipli kompüterlərin qiymətləri azalmışdır. Digər qeyri-ərzaq mallarının qiymətləri, demək olar, dəyişməmişdir.

Noyabr ayında oktyabr ayına nisbətən əhaliyə göstərilən ödənişli xidmətlərə gəldikdə, mənzillərin icarə haqqı, paltarların təmizlənməsi, təmiri və kirayəsi, ictimai iaşə və stomotoloji xidmətlərin qiymətləri bahalaşmış, ölkə daxilində istirahət turlarının, dəmir yolu və hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətləri ucuzlaşmışdır. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər olmamışdır.

***"Azərbaycan"***




# İnfrastruktur layihələri uğurla icra olunur



Hazırda respublikamzda icra edilən infrastruktur layihələri arasında yol çəkilişinə xüsusi diqqət yetirilməkdədir. İri şəhərlərdən tutmuş ən uzaq məsafədə yerləşən bölgələrimizə kimi bu məsələ ən vacib vəzifələrdən biri kimi qarşıya qoyulub. Şübhəsiz ki, neftdən asılılığın azaldıldığı, qeyri-neft sektoru, ələlxüsus da kənd təsərrüfatı prioritet seçildiyi bir zamanda birmənalı şəkildə istehsal olunan məhsulun tez və itkisiz bazarlara çıxarılmasında yolun əvəzi yoxdur.



Digər tərəfdən, normal yol infrastrukturu ərazidə yaşayan sakinlərin rahatlıq baxımından el-obasına ürəklə bağlanması, miqrasiya səviyyəsinin aşağı düşməsi deməkdir.

Bu məsələyə hər yerdə olduğu kimi, İsmayıllı rayonunda da həssaslıqla yanaşılır. "9 №-li Yol İstismarı" MMC-nin direktoru Rəşad Kərimov bildirdi ki, müəssisə 86 kilometr respublika əhəmiyyətli, 279 kilometr yerli əhəmiyyətli avtomobil yollarına, 23 ədəd körpü və yol qurğularına xidmət edir.

Cari ilin avqust ayının 26-da Prezident İlham Əliyevin İsmayıllı rayonuna səfəri zamanı etdiyi yol açılışları yerli sakinlərdə bayram ab-havası yaratdı. 2018-ci ildə "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq Prezident sərəncamına əsasən 3 kəndi və yaşayış məntəqəsini birləşdirən 1020 nəfər əhaliyə xidmət göstərən Kürdmaşı-Kəlbənd-Girk avtomobil yolunda 72 min kvadratmetr asfalt-beton örtük çəkilib. 12 kilometr yol əsaslı təmir olunaraq sakinlərin istifadəsinə verilib. Bu yolda 20 ədəd müxtəlif ölçülü dəmir-beton suötürücü borular quraşdırılıb. Həmçinin 5 ədəd avtodayanacaq tikilib, yol bütün lazımi hərəkət nişanları və siqnal dirəkləri ilə təmin edilib. Hazırda həmin yolda Kəlbənd çayı üzərində ikiaşırımlı yeni dəmir-beton körpünün tikintisi davam etdirilir.



Rəşad Kərimov bildirdi ki, eyni zamanda 5 kəndi birləşdirən 851 nəfər əhaliyə xidmət göstərən Minkə-Keyvəndi-Şəbiyan-Bəhliyan avtomobil yoluna 9 kilometr asfalt-beton örtük çəkilərək əsaslı təmir işləri başa çatdırılıb. Yolun 2,7 kilometrlik hissəsinin təmiri isə növbəti ildə yekunlaşacaq.



Muğanlı-İsmayıllı avtomobil yolunun hərəkət hissəsində də qabarmalar və çökmələr aradan qaldırılıb. Çala təmiri işləri yerinə yetirilib. Muğanlı-İsmayıllı və Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yollarında üfüqi xətlənmə işləri aparılıb. Sınmış işarə dirəkləri yeniləri ilə əvəzlənib. Çatışmayan yerlərə isə yeni işarə dirəkləri basdırılıb. Yerli əhəmiyyətli avtomobil yollarından Basqal-Sulut, Basqal-Tağlabiyan-Kəlfərəc, Kürdüvan-Mücü, Basqal-Qıçatan, Ağbulaq-Qoşakənd, Qasımkənd, Qurban-əfəndi, Yenikənd-Şükürçü, Şəbiyan-Bilistan avtomobil yollarına çınqıl döşənib.

Müəssisə rəhbəri bildirdi ki, növbəti illərdə də avtomobil yollarının təmiri və tikintisi işləri aparılacaq. Yol təsərrüfatı olaraq kollektiv üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək ki, avtomobil yollarında nəqliyyatın təhlükəsiz hərəkəti, insanların rahat gediş-gəlişi təmin olunsun.

Qış mövsümünə hazırlıqla əlaqədar Muğanlı-İsmayıllı, Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunda və yerli əhəmiyyətli yollarda cari təmir işləri aparılıb. Belə ki, Muğanlı-İsmayıllı, Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yollarının hərəkət hissələrində, çiyinlərində çala təmiri işləri aparılıb və yolun çiyinləri hamarlanıb. Muğanlı-İsmayıllı avtomobil yolunun müəyyən hissələrində toplanmış torpaq kütlələri yoldan kənarlaşdırılıb və daralmış hissələr genişləndirilib. Yolun çiyin hissələrinə çınqıl tökülərək yayılıb və avtoqreyderlə hamarlanıb. Xidmət edilən avtomobil yollarında istismar müddəti ötmüş yol nişanlarının bir qismi təmir olunub. Paralel olaraq respublika əhəmiyyətli avtomobil yollarının kənarları tullantılardan təmizlənib.

Qış mövsümünə hazırlıqla əlaqədar idarədə avtomobil yollarına səpilmək üçün müəyyən miqdarda qum və duz ehtiyatı da yaradılıb. Bu məqsədlə 480 kubmetr qum, 30 ton duz tədarük olunub. Sonrakı mərhələlərdə də zərurət yaranacağı halda qum və duz ehtiyatının yaradılması təmin ediləcək.

Qış mövsümünə hazırlıqla əlaqədar idarəyə məxsus maşın-mexanizmlər təmir olunaraq saz vəziyyətə gətirilib. Fəhlə və mexanizatorlar isti geyimlərlə təmin olunublar. Xidməti avtomobil yollarına operativ nəzarəti təmin etmək üçün sutkalıq növbətçilik yaradılıb. Avtomobil yollarının eniş-yoxuşlu hissələrində və sərt döngələrdə sürüşməyə qarşı tədbirlər görülüb. Bütün tədbirlər ona yönəldilib ki, ismayıllılılar yeni və rahat yolların dadını çıxarsınlar.

***Əli SƏLİMOV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Naftalana gələn xarici turistlərin sayı 34 faiz artıb

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları ölkə iqtisadiyyatının şaxələnməsini təmin etməklə bərabər, qeyri-neft sektorunun inkişafına da güclü təkan vermişdir. Nəticədə digər sahələr kimi, turizm infrastrukturu da yenilənir, turizm xidmətləri genişləndirilir, beynəlxalq standartlara cavab verən istirahət məkanlarının sayı artır.







Başqa sözlə, dövlət başçısı tərəfindən təsdiq edilmiş "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən edilmiş hədəflərin reallaşdırılması sayəsində qeyri-neft sektorunun ən gəlirli sahələrindən olan turizm sektoru da sürətlə inkişaf edir.

İndi nəinki paytaxt Bakıda, eləcə də bölgələrimizdə beynəlxalq standartlara cavab verən çoxlu sayda turizm məkanları var.

Belə məkanlardan biri Naftalandır. İlin bütün fəsillərində bura istər yerli, istərsə də xarici turistlərlə dolu olur.

Artıq bir neçə ildir ki, bu şəhər həm nadir müalicəvi neftinə, həm də müalicə və istirahət üçün yaradılan müasir infrastrukturuna görə turistlər üçün cəlbedici məkana çevrilmişdir. Məhz bunun nəticəsidir ki, Naftalana gələn turistlərin sayı ildən-ilə artır. Belə ki, ilin 11 ayında şəhərə 34515 nəfər turist gəlmişdir. Onların 11 min 67 nəfəri xarici turistlərdir. Bu da əvvəlki illə müqayisədə 34 faiz artım deməkdir.

Dünya standartlarına cavab verən "Çinar", "Qaşaltı", "Qarabağ" istirahət və sağlamlıq mərkəzlərinə gələnlərin sayı bundan da çox - son 5 ildə 6 dəfə artmışdır. Bu mərkəzlərə Rusiya Federasiyasından, Özbəkistandan, Türkmənistandan, Qazaxıstandan, Qırğızıstandan, Ukraynadan, Latviyadan, hətta Almaniyadan, Türkiyədən, Kanadadan, İsraildən, Polşadan, Fransadan, İspaniyadan, İtaliyadan, Yaponiyadan, Çindən, Birləşmiş Ərəb Əmirliklərindən gələnlər üstünlük təşkil edir.

Şəhərdə təzə ilə də hərtərəfli hazırlıq görülür. Bu məqsədlə istər yerli, istərsə də xarici turistlərin yeni il şənliyini mənalı və maraqlı keçirmələri üçün tanınmış musiqiçilər və müğənnilər dəvət edilmiş, park və istirahət yerlərində səliqə-sahman yaradılmağa başlanmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Elektrod istehsal ediləcək



Qazax rayonunda Xanlıqlar kəndi ərazisində inşa edilən "Gedik-Carçı" elektrod zavodu yaxın günlərdə fəaliyyətə başlayacaq. 1,5 hektar sahəni əhatə edən zavodda tikinti işləri başa çatdırılmışdır. Türkiyəli mütəxəssislərin iştirakı ilə sexlərdə quraşdırılmış avadanlıqlar yoxlanılmış, istehsal olunan elektrodların keyfiyyəti sınaqdan çıxarılmışdır.

Hazırda zavodun həyətində abadlıq və yaşıllaşdırma işləri görülür, müxtəlif növ ağac və gül kolları əkilir. Burada 100 nəfərədək insan çalışacaq.

Gələcəkdə elektrodların xarici ölkələrə də ixracı nəzərdə tutulmuşdur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Nərəbalıqartırma zavodu tikilir

1956-cı ildə Neftçalanın Yenikənd kəndində tikilib istfadəyə verilən Kür Təcrübə Nərəbalıqartırma Zavodu keçən əsrin 70-80-ci illərində respublikadakı balıqçılıq sənayesi sahəsinin qabaqcıl, yenilikçi müəssisələrindən biri olmuşdu. Lakin zaman bu müəssisənin taleyi üçün də öz sözünü demişdi.





İllər keçdikcə buradakı qurğu və avadanlıqlar köhnəlib sıradan çıxmışdı. SSRİ-nin dağılması, 1990-cı illərdə respublikamızda baş verən məlum hadisələr bu prosesi daha da sürətləndirmişdi. Elə buna görə də müəssisənin əsaslı şəkildə yenidən qurulması tələb olunurdu.

Azərbaycan Respublikası dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramına və investisiya müsabiqəsinin keçirilməsi qaydalarına uyğun olaraq, 31 may 2018-ci il tarixdə sözügedən müəssisənin satış üzrə investisiya müsabiqəsi elan olunmuş və 4 iyul 2018-ci il tarixdə açıq səsvermə yolu ilə "Azərbaycan Fish Farm" MMC müsabiqənin qalibi elan edilmişdir. Alqı-satqı müsabiqəsinin şərtlərinə uyğun olaraq qalib şirkətə ilkin mərhələdə 750 min manat vəsait ayrılmışdır. Bütövlükdə isə layihənin dəyəri 3 milyon 79 min manatdır.

İnvestisiya proqramına müvafiq olaraq, yeni zavodda CITES Konvensiyası (kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarət konvensiyası) çərçivəsində nəsli kəsilməkdə olan 4 növ edemik balığın (bölgə, kələmo, nərə, uzunburun) yetişdirilməsi planlaşdırılır. İnvestisiya proqramının icrası nəticəsində müəssisənin Xəzəryanı ölkələr arasında ilk nohur açıq su təchizatı sistemi və qapalı su çevrəsi əsasında fəaliyyət göstərəcək ixtisaslaşdırılmış damazlıq təsərrüfatı olacağı gözlənilir.

Tikintiyə cari ilin sentyabrında start verilmişdir. İşin birinci mərhələsini "İnşaatçı Neftçi" görür. Tikintiyə 25-dən çox maşın-mexanizm - buldozer, qreyder, torpaqkipləşdirici texnika, ağırtonnajlı maşın cəlb edilmişdir. Usta və fəhlələrin sayı 40 nəfərdir. Onların gərgin əməyi sayəsində obyektdə indiyədək xeyli iş görülmüşdür. Hər birinin sahəsi 1 hektar olan 21 nohurun inşasında işlərin çoxu başa çatdırılmış və hazırda onları su ilə qidalandıracaq, habelə nohurlardan çıxan suyu Kür çayına axıdacaq beton kanallar, şlüzlər, qatlavanlar tikilir.

Birinci mərhələdə qapalı su servisi və inkubasiya sexində ana balıqlardan götürülən kürü təmizlənərək sürfələr alınacaq. Sürfələrin çəkisi 2-3 qrama çatanda dairəvi hovuzlara köçürüləcək və 500 qramadək böyüdükdən sonra böyük hovuzlara buraxılacaq. Balıqlar üçün yaş dövrünə uyğun olaraq yemlər yetişdiriləcək. Tikintinin ikinci mərhələsində də xarici ölkələrdən alınan avadanlıqlar quraşdırılacaq.

Yeni müəssisənin 50 hektar ərazisi var. Burada təzə inzibati bina və digər lazımi tikililər inşa ediləcək, yaşıllıqlar salınacaq. Obyektin gələn ilin payızında istifadəyə verilməsi nəzərdə tutulub.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Yeniliklər sakinlərə rahatlıq gətirir

Respublikamızın iri kənd təsərrüfatı rayonlarından Goranboyda da son illər həyata keçirilən məqsədyönlü işlər sayəsində insanların həyat tərzi, dolanışığı nəzərəçarpacaq dərəcədə yaxşılaşmışdır. Yol infrastrukturunda aparılan yeniliklər isə həm əhalinin rahatlığını təmin etmiş, həm də istehsal olunmuş məhsulların şəhərlərə daşınmasını xeyli asanlaşdırmışdır.




Bu il 27 min nəfər əhalinin yaşadığı 20 yaşayış məntəqəsini birləşdirən avtomobil yollarının istismara verilməsi rayon mərkəzi ilə kəndlərin nəqliyyat əlaqələrini əhəmiyyətli dərəcədə yaxşılaşdırmış, bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafına güclü təkan vermişdir. Uzunluğu 14 kilometr olan Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout, 20 kilometrlik Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yollarının istifadəyə verilməsi də həmçinin.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində keçən il tikintisinə başlanılmış "Region Aqropark"da isə işlər yekunlaşmaq üzrədir. Goranboy və Samux rayonlarının inzibati ərazisində yerləşən Bozdağ massivində yaradılmış parka Şəmkir kanalından 12,1 kilometr uzunluğunda su kəməri çəkilmiş, su anbarları inşa edilmiş, müasir suvarma qurğuları, transformator quraşdırılmışdır. 12 kilometr uzunluğunda qaz xəttinin çəkilişi isə yekunlaşmaq üzrədir.

"Region Aqropark"ın ilk uğurları da var. Belə ki, bu il kollektiv 326 hektar sahədən 1206 ton buğda, 497 hektar sahədən 2087 ton arpa, 64 hektar sahədən 640 ton kartof götürmüşdür. İlk dəfə 323 hektar sahədə şəkər çuğunduru, 823 hektarda qarğıdalı əkən kollektiv bu sahələrdə də yaxşı göstəriciyə malik olmuşdur.

Məlum olduğu kimi, Goranboy sudan korluq çəkən rayonlardandır. Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin və ondan sonrakı 4,95 kilometrlik hissəsinin istifadəyə verilməsi bu sahədə problemi qismən aradan qaldırmış, rayonda daha 8 min hektar sahənin suvarılmasını təmin etmişdir.

Abadlıq və quruculuq işləri cari ildə də davam etdirilir. Bu il Bayraq meydanı tikilmiş və ətrafında yaşıllıq salınmış, ərazidə geniş işıqlandırma sistemi yaradılmışdır. Hazırda rayonda bir neçə obyektin tikintisində işlər sürətlə davam etdirilir. Onlardan biri Mərkəzi rayon xəstəxanasıdır. 130 çarpayılıq xəstəxana binası istifadəyə verildikdən sonra rayonda pərakəndə halda olan səhiyyə ocaqları burada fəaliyyət göstərəcəkdir.

Olimpiya idman kompleksinin tikintisi də sürətlə aparılır. Bu kompleksin tikintisi üçün dövlət büdcəsindən 3 milyon manat vəsait ayrılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***







# Tarixin tarixi olmayanda...

Azərbaycan ədəbiyyatında özünəməxsus yeri və deyim tərzi olan, bənzərsiz dəsti-xətti ilə seçilən, bütün yaradıcılığı yurd, torpaq ağrı-acıları ilə yoğrulan şair Davud Nəsibi tanıyanlar yaxşı bilirlər ki, onu sözə, sənətə bağlayan, yaşadıqlarını, çəkdiklərini poeziyaya çevirən məhz həyatın keşməkeşləri, ağır günləri oldu. Onu yaşadığı ömrün çətinlikləri, keçdiyi sınaqlar və haqqa sədaqəti şair etdi desək, yanılmarıq. O, əlinə qələm alan gündən içini narahat edən kəlmələri, yuxusunu qaçıran sətirləri kağıza köçürməklə məşğul oldu. İkinci Dünya müharibəsində atasını itirən Davud Nəsibin ağlına da gəlməzdi ki, qismətinə daha bir savaş, müharibə də yazılıb. Həm də öz evinin, yurdunun içində olacaq bu savaş - Qarabağ savaşı.



Vətən, torpaq adlı o böyük həqiqətləri və ağrı-acıları həm şeirlərində, həm nəsr əsərlərində eyni uğurla qələmə alan Davud Nəsibi daha yaxşı tanımaq üçün oğlu Xəyyamın söylədiyi bir əhvalat olduqca ibrətamizdir. Belə ki, Bilgəhdə yeni bağ evi alan ailə həyətdə səliqə-sahman yaratmaq istəyir, qurumuş otları yandırır. Bu zaman bir quşun yuvası və oradakı balaları da yanır. Ondan sonra, yəqin ki, həmin balaları dünyaya gətirən iki quş hər gün eyvana gələr, oradan "ağılarını" deyərdi. Bu, ona çox pis təsir edərdi. Danışardı ki, "özüm hər zaman ata ocağının həsrətini çəkmişəm, doğma yurddan yazmışam, amma hansısa quşun yuvasını yandırdım". Sonradan o bağ evini satmalı olurlar: "Bu, mənim atam idi - bir quşun yuvasının dağılmasına dözə bilməyən adam..."

Bir quşun yuvasının dağılmasına dözə bilməyən insanın el-obası dağılırsa, qız-gəlini əsir düşürsə, buna necə dözə, necə tab gətirə bilər? Özü də bu dağıntının, bu fəlakətin tarixi yüzillərə gedib çıxırsa, onda necə? Məhz bu hadisələr onun yaradıcılığı üçün tamam yeni bir formaya - nəsrə müraciət etməsinə səbəb oldu. Ürəyini boşaltmaq və tarixi həqiqətləri oxuculara daha əhatəli və maraqlı bir formada çatdırmaq üçün publisistikanın, nəsrin imkanları ona daha geniş və cəlbedici görünürdü. Bu baxımdan həyatının 20 ilindən çoxunu həsr etdiyi "Cavanşir" (2000) və "Cavanşirsiz məmləkət" (2002) romanlarının meydana gəlməsini özünüifadənin sadə bir forması kimi qiymətləndirmək, ən azından, bir günah olardı. O, bu əsərlər üzərində çalışarkən müxtəlif arxivlərə baş çəkir, saysız-hesabsız mənbələri araşdırmaqla məşğul olurdu. Bu işdə akademiklər Ziya Bünyadov, Budaq Budaqov, professor Qiyasəddin Qeybullayev onun ən yaxın dostlarına və yolgöstərənlərinə çevriliblər. Onların faktlarla, sənədlərlə elmi ictimaiyyətə təqdim etdikləri həqiqətləri Davud Nəsib bədii təxəyyülün gücü ilə daha yüksəkliklərə qaldırmağa çalışır və buna bir sənətkar kimi nail ola bilirdi.

O, bu əsərlər üzərində elə həvəslə, elə əzmlə, elə inadla çalışırdı ki, sanki vaxtın və əcəlin səbirsizliklə onu gözlədiyini bilirdi. Elə bu əsərlərin ardınca - 2003-cü ildə bir maşın qəzasında Davud Nəsibin dünyasını dəyişməsinə də təsadüf kimi baxmaq olmaz. Zatən onun içindəki qəza çoxdan baş vermişdi...

Nədən və haradan qaynaqlanırdı bitib tükənməyən bu ağrı-acılar? Harada gözləyirdi onu bu qəza?.. Bunun üçün müəllifin son əsərlərini bir də oxumaq məsləhətdir. Davud Nəsibin VII əsrdə yaşamış böyük, qüdrətli alban hökmdarı, sərkərdəsi Cavanşirin qəhrəmanlıqla zəngin, keşməkeşli, faciəli həyat və fəaliyyətindən bəhs edən "Cavanşir" və "Cavanşirsiz məmləkət" tarixi romanlarını təkrar vərəqlədikcə Aristotelin söylədiyi bir həqiqət yada düşür: "Poeziya yalnız zahiri əlamətlərin, hadisələrin təsviri deyil. O, tarixdən daha ciddi və fəlsəfidir. Çünki tarix olan şeyləri göstərirsə, poeziya ola biləcək şeyləri də göstərir". Məhz bu mənada Davud Nəsibin həm də vətəninə bağlı, yurd həsrətli bir ziyalı kimi tarixdən, olub keçənlərdən danışarkən daha qabağa gedərək olacaqları da göstərməyə çalışmaq istəyi anlaşılandır. Əsərdəki hadisələr o qədər canlı və sadə bir dillə təqdim olunur ki, baş verənlər hər dəfə bir kinolent kimi göz önündə canlanır, oxucu sanki həmin dövrün və təlatümlərin iştirakçısına, şahidinə çevrilir. Mövzudan yayınmamaqla qeyd etməyə dəyər ki, tariximizin çox maraqlı bir dövrü - Albaniya dövrü, Cavanşir obrazı Davud Nəsibin qələmində sanki özü gözəl bir bədii-sənədli filmin ortaya qoyulmasını tələb edir. Hər iki romanın oxucuya çatdırmağa çalışdığı həqiqətlərə keçməzdən əvvəl bir fakta nəzər yetirmək lazımdır: Azərbaycan tarixinin ayrılmaz bir hissəsi kimi Alban tarixini daha dərindən tədqiq etmək və onu yalançı erməni "alim"lərinin hücumlarından, basqılarından qorumaq məsələsi həmişə olduğu kimi, bu gün də öz aktuallığını qoruyub saxlayır. Vaxtilə bu mübarizənin önündə gedən akademik Ziya Bünyadov Alban tarixinin saxtalaşdırılması məsələsində erməni "alim"lərinin azğınlığını, həyasızlığını tutarlı elmi faktlarla ifşa edir, 1965-ci ildə az qala on illik tədqiqat işlərinin nəticəsi olaraq ortaya qoyduğu "Azərbaycan VII-IX əsrlərdə" adlı kitabında onların sərsəm fikirlərinə və iddialarına belə cavab verirdi: "Burada müxtəlif rəsmi və qeyri-rəsmi idarələrə göndərilən gizli, imzalı və imzasız məktublar, eləcə də ünvanıma yazılmış heç bir dəyəri olmayan, elmdənkənar cəfəngiyyatlarla yanaşı, söyüş və birbaşa təhdidlər olan məktublar haqqında danışmayacağam. Qoy bu təhqirlər və küçə söyüşləri son zamanlar qriqoryan ruhaniliyinin mənafeyini sosialist cəmiyyətinin mənafeyi ilə qarışıq salan, həm də birincinin mənafeyini ikincininkindən üstün tutan Ermənistan Respublikasının bəzi vətəndaşlarının vicdanına yazılsın... Mənim opponentlərim qriqoryan ruhaniliyinin müdafiəsinə qalxmaqla, şəxsi simpatiyalarına uyğun olaraq, onun əsl tarixi rolunu təhrif edir, istər-istəməz bu kilsənin vaizinə çevrilirlər..."




Həmin o illərdə Davud Nəsib ictimai-siyasi prosesləri yaxından izləyir, torpaqlarımızda baş qaldıran separatçılıq meyillərinin nəyə ünvanlandığını gözəl anlayır, Azərbaycan SSR-in xəritəsi üzərində qılıncla dolaşan, Gəncəni, Beyləqanı, Salyanı, Şəkini, Şəmkiri, Zəngəzuru, Tovuzu, Naxçıvanı, Girdiman və Qarabağı qamarlamaq istəyən qüvvələrin haradan və kimdən "ilham" aldığını da bir ziyalı, bir vətəndaş olaraq yaxşı bilir və onlara qarşı öz səsini ucaldırdı.

Davud Nəsibin qələmə aldığı hər iki əsərdən - "Cavanşir" və "Cavanşirsiz məmləkət" romanlarından tariximizin mənimsənilməsi, özgəninkiləşdirilməsi ilə bağlı bu müdhiş həqiqətlər qırmızı xətlə və çox böyük ürək ağrısıyla gəlib keçir. Müəllif özü də əsərin əvvəlində onun yaranma səbəblərinə, tarixi proseslərin bugünkü reallıqlarla əlaqələrinə toxunaraq yazır ki, Azərbaycan xalqının qədimdə, XX əsrin ilk və sonrakı illərində, indiki dövrdə başına gələn faciələrin ilkin kökləri VII əsrdən - Cavanşirin qətlindən sonrakı dövrə gedir və ardıcıl şəkildə həyata keçirilir. Bu kitabların yaranma səbəbi də ancaq və ancaq bununla bağlıdır. Bu yerdə böyük rus yazıçısı F.Dostoyevskinin sözlərini xatırlamamaq olmur: "Tarix keçmişin yox, gələcəyin elmidir. Belə olub və həmişə də belə olacaq". Davud Nəsib bəzən mətləbdən yayındığı üçün oxucusundan üzr istəyərək deyir: "Bu, 704-cü ildən başlanmışdı. Haylar Balkanlardan köçüb gəlib türk torpaqlarında, Anadolunun şərqində, Fərat çayının yuxarı axınında məskunlaşıblar. "Dənizdən-dənizə" deyəndə heç fikirləşməyiblər ki, nə qədər əhalisi olub ki, xəritədə çəkdikləri ərazidə özlərini yerləşdirə bilsinlər... Oxucular VII əsrlə bağlı bu əsərimizdə yeri gəldikcə belə faktlarla qarşılaşacaqlar. Bu da təbiidir. Ona görə ki, böyük Alban ölkəsinin dağılmasında ermənilərin də rolu var. Daha doğrusu, onların satqınlığı ilə, böyük dövlətlərin gücü ilə, xüsusilə ərəblərin əli ilə dünyəvi mədəniyyətə malik, eramızın IV əsrindən öz əlifbası, şairləri, alimləri, memarları olan qüdrətli bir dövlət parçalanıb. Əsər VII əsr hadisələrindən söhbət açsa da, bugünümüz və gələcəyimiz üçün nəzərdə tutulub. Əsrlər arasında xeyli məsafə olsa da, hadisələrin məzmunu yox, forması dəyişib..."

Müdrikcəsinə deyilən sözdür. Həqiqətən son yüzillikdə başımıza gələnlər də sübut etdi ki, hadisələr formasını dəyişsə də, məzmun həminkidir: həmin iddialar, həmin saxtakarlıqlar, həmin vəhşiliklər...

Hazırda Qarabağda, işğal altındakı torpaqlarımızda törədilən vandalizm aktları, məhv edilən və ya tarixi saxtalaşdırılan abidələrimiz, adları zorla dəyişdirilən (zorla deyirik, çünki dili-ağzı olsaydı, Allah bilir, onlar nə danışardı) qədim şəhər və yurd yerlərimizi xatırladıqca, bir növ, müəllifin içindəki üsyanın, etirazın iştirakçısına çevrilirsən. Bizim maddi-mədəniyyət abidələrimiz, zəngin tariximiz üzərində ermənilər "dənizdən-dənizə" xəyallar qurmağa çalışırlar. Bu uydurmalar alban hökmdarı Cavanşirin qətlə yetirilməsindən sonra ardıcıl həyata keçirilib. Əksəriyyəti ərəblərin əli ilə yerlə yeksan edilib. Əsər boyu müəllifin haqlı etirazlarından doğan belə nümunələr kifayət qədərdir. Həm də təqdirəlayiqdir ki, onun söylədiklərini, qələmə aldıqlarını tarixi faktlar, salnamələr təsdiqləyir. Məhz bunu nəzərə alaraq akademik Budaq Budaqov və professor Qiyasəddin Qeybullayev kitaba ön sözdə qeyd edirlər: "Tarixi roman yazmaq üçün qələm sahibi bədii yaradıcılıq səriştəsi ilə yanaşı, müəyyən tarixi və coğrafi biliyə, təsvir etdiyi dövrün siyasi-ictimai durumuna, hadisələrin mahiyyətinə və bu hadisələrdə tarixi şəxsiyyətlərin rolları və mövqeləri haqqında aydın təsəvvürə malik olmalıdır".

Müəllif qəhrəman Cavanşirin bir sərkərdə, hökmdar kimi keçdiyi döyüş yoluna, ömrünün müəyyən anlarına xüsusi diqqət ayırır. Onun taleyi elinin-obasının, Alban torpağının faciələri ilə yanaşı verilir. O, əsərin əvvəlində imkanlı şəxsləri nəzərdə tutaraq qoca Vironun diliylə deyir: "Var-yoxlarını vətənin gələcəyi naminə əsirgəməsinlər, qızılı, var-dövləti tapmaq olar. Torpağı tapdalamaq - namusu tapdalamaq deməkdir".

Ərəblərə qarşı mübarizədə Sasani hökmdarı Yezdəgirdə köməyə yollanan gənc Cavanşir yol boyu düşünür, bəzən getdiyi bu ağır yolun mənasını dərk etmir: "Nə üçün, kimin üçün on min say-seçmə alban oğulları yad eldə döyüşməlidir, onlar kimi kimdən qorumalıdırlar? Bircə təsəllim var: cənuba da səpələnmiş qohum-əqrəbaları qorumaq özü bir şərəf deyilmi? Bu böyüklükdə elin bir oğlu çıxmayacaqmı ki, onları canbir eləsin, bir ocaq ətrafına yığsın?" Onun bugünümüzlə səsləşən düşüncələri erməni hiylələri və yalanları fonunda daha da aktuallaşır. Əsərdə xeyirlə şər kimi bizdən - elimizdən, obamızdan qopmaq, ayrılmaq bilməyən bir erməni bəlası var və o, bütün hadisələrdə gizlin, ya da açıq özünü büruzə verir. Məsələn, erməni Mamikonianın dəstəsi də Rüstəmlə Cavanşirin qoşunlarına gəlib çatan kimi erməni xisləti, yalanı ortaya çıxır: eynən indiki kimi, onların ikiüzlü sifətləri görünür: ermənilər məcburiyyət qarşısında döyüşə yollandıqları halda yalnız öz mənafelərini düşünür, ərəblərlə gizli danışıqlar apararaq Sasanilərlə də işbirliyindən əl çəkmirlər. Bütün bunları oxuyarkən akademik Ziya Bünyadovun erməni rəqiblərinə dediyi sözlər yada düşür: "Vicdan insan oğlunun yaraşığıdır!"

Davud Nəsib hər iki romanında göstərməyə çalışır ki, vicdan həm də bütövlükdə hər bir xalqın və millətin yaraşığı olmalıdır. Təəssüf ki, əvvəldən belə olmayıb və indi də belə deyil. Sasani hökmdarı Xosrov Pərvizlə xanımı, alban gözəli Şirini Şərq poeziyasının sevimli personajları kimi hamı yaxşı xatırlayır. Böyük Nizamidən başlayaraq onların böyük sevgi hekayəsinə kimlər toxunmayıb ki... Müəllif əsərində bir faktı da ürək ağrısı ilə qələmə alır: Xosrovun Şirinin şərəfinə tikdirdiyi Vəng kilsəsini sonradan ermənilər mənimsəyərək öz adlarına çıxıblar...

Mürəkkəb bir dövrdə baş verən müxtəlif hadisələri müəllif ustalıqla seçib ayıra bilir, romanın şirin dili ilə oxucuya aydın bir şəkildə çatdırmağı bacarır. Cavanşirin atası Varazın böyük güclərin toqquşduğu bir vaxtda ocaq başında düşündükləri günümüzün acı reallıqlarını da özündə əks etdirir. "O, ocaqdakı kötükləri, qəribə də olsa, qəlbində üç böyük çaplıcaya bənzətdi. Onları alışdırmaq üçün nə qədər xırda qol-budağın yanıb kül olduğunu təsəvvürünə gətirdi. Kiçik xalqları, ölkələri həmin qol-budaqlara bənzətdi. Ürəyində düşündü: qolunda gücün yoxdursa, onda başını işə sal. Ağlın, düşüncənin gücü hər şeydən üstündür. Yarmaca ilə kötükləri bir də qurdaladı, onları yaxınlaşdırdı. Bu kötükləri qurdalayıb alışdırmaq, ancaq alışdırmaq, bir-birinin üstünə salmaq..."

Hökmdar Varazın yuxusunu o gecə ərşə çəkən şimaldan xəzərlərin, cənubdan Bizansların və Sasanilərin ardı-arası kəsilmədən basqınları, bir də ərəblərin atlı qarışqa sürüsü kimi dirçəlməsi idi. Onun - Varazın hər dəfə belə düşünəndə qəlbinin gizli guşəsindən kiçicik bir qığılcım parlayırdı: "Bu qığılcım onun oğludur - Cavanşirdir... Ağsaqqal atanın, dünyagörmüş sərkərdənin qəlbindəki qığılcımı, inamı, ümidi... hər vəchlə onu qoruyur, elə bil ki, gələcək üçün, bu yurd-yuvanın sabahı üçün böyüdürdü..."

Ərəblərə qarşı mübarizədə tarixə "Qadisiyyə" adı ilə daxil olan o dəhşətli döyüşdə Cavanşir bir sərkərdə kimi nəyə qadir olduğunu hamıya sübut etdi. Yeddi il ərzində o, həmişə qanlı döyüşlərin mərkəzində oldu və oğuz türklərindən sərkərdə Rüstəmlə birgə yorulmadan ərəb qoşunlarına qarşı vuruşur, eyni zamanda, Alban dövlətinin gələcəyi barədə düşünürdü: "Şahmatda olduğu kimi, həmişə piyadaları - kiçik xalqları qabağa ötürürlər. Güclülər - şah və vəzir onların arxasında gizlənir. Müharibə oyununda belədir. Tək-tək sərkərdələr qabağa düşürdü və tez də sıradan çıxırdılar. Vay onda piyadaların halına, çünki onların heç vaxt geriyə yolu olmayıb, ya qırılıblar, ya da yarıb keçiblər. Bütün zamanlarda, elə indinin özündə də piyadalar döyüşür..."

Bunun ardınca müəllif qeyd edir ki, bu dəfə ərəblərə yanaşı, Sasani hökmdarının da gözləmədiyi halda Cavanşirin başında durduğu "piyadalar" nəinki döyüşür, hətta qalib gəlirlər: "Cavanşirin cəmi-cümlətanı 3 min qoşunla onları pərən-pərən salması Yezdəgirdə möcüzə kimi göründü..." Cavanşirin bir sərkərdə kimi böyük şücaət göstərdiyi bu döyüşdən sonra İran şahı onu ən yüksək mükafatlara layiq gördü. Salnaməçi yazır: "Şah onu sərkərdəyə layiq olan mükafatlarla mükafatlandırdı, o cümlədən sərkərdə kəranayları, iki qızıl nizə və qızılla süslənmiş iki qalxanla fərqləndirdi. Şah onun belinə mirvari ilə işlənmiş qızıl kəmər və qızıl saplı qılınc bağladı, qollarına qolbaqlar saldırdı, başının üstünə isə daş-qaşlı tac qoydurdu. Onun boynuna ağır mirvari boyunbağı asdılar, çiyninə taftadan tikilmiş şah geyimi saldılar və zərli ipək parçadan tikilmiş dörd qotazlı mavi rəngli şalvar geyindirdilər. Şah əmr etdi ki, ona kəndlər və balıqla dolu çaylar bağışlansın". Müəllif mənbələrə əsaslanaraq qeyd edir ki, oğuz övladı Rüstəmdən sonra Cavanşir ikinci sərkərdə idi ki, hökmdar tərəfindən belə mükafatlara layiq görülürdü.

Davud Nəsib Cavanşiri döyüşlərdə bərkiyən bir siyasətçi kimi də çox maraqla təqdim edir. Ərəblərə qarşı döyüşən bir dövlətin içərisində az qala vətəndaş müharibəsi gedir. Tərəfləri şahın hüzuruna gətirən Cavanşirin dedikləri bugünümüzlə necə də səsləşir: "Sizin bir-birinizlə bu savaşınız bilirsiniz nəyə bənzəyir? Mal-mülk, yurd sahibi olan bir atanın ölümündən sonra iki doğma qardaşın atadan miras qalan var-dövlətin bölüşdürülməsi üstündə dava-dalaşa... İranın belə bir ağır günündə yenə də sərvət barədə düşünürsünüz. Dövlətiniz süqut edəndə elə bilirsiniz ki, kim nə qədər bu torpaqdan qamarladı, qazanacaq? Səhv edirsiniz, həmin torpaqlar ərəb atlarının otlağı olacaq, əkdiyiniz-becərdiyiniz ərəb əsgərlərinin qarnını doyduracaq..." Yeddi illik ayrılıqdan sonra vətənə - Albaniyaya dönən Cavanşirin hissləri, duyğuları, yurdun gələcəyi ilə bağlı arzuları olduqca dolğun qələmə alınıb. Cavanşirin məqsədi torpaqların, Naxçıvandan Dərbəndə kimi bütün ərazilərin bir dövlət ətrafında birləşdirilməsi idi.

O, Albaniyanı qansız-qadasız, güllü-çiçəkli bir ölkəyə çevirmək istəyirdi. Bu xəyali istəyini əhaliyə bildirmirdi. Qorxurdu ki, camaatın əli silahdan soyuyar, ayıq-sayıqlığını itirər. Bu isə Albaniyanın da süqutu ola bilərdi... Bununla belə, o, əsərin ikinci hissəsində - "Dönüş"də öz məqsədlərini dilə gətirir: "Yadınızda saxlayın ki, Naxçıvan da Albaniyanın bir hissəsidir, bunu mənzil ayrılığı hesab edin həmişə, fikir ayrılığı yox..."

Əsər boyu müəllif bir bədii vasitə kimi Cavanşirin yuxularından doğan bəzi həqiqətləri, hadisələri bacarıqla qələmə alır. Ölkənin şimalına üz tutan Cavanşir növbəti dəfə yuxusunu qarışdırır. Tələsik geri dönür. Məlum olur ki, iranlılar Bərdəni ələ keçirib və anasını, qardaşlarını əsir götürüblər. Salnaməçi yazır: "O gün Cavanşir balalarını itirmiş dişi ayı kimi çox qəzəbləndi, hiddətləndi". Doğrudan da, hiddətlənməmək mümkün deyildi. Neçə il İran üçün vuruşan, qan tökən bir insana sonda verilən dəyər bu idimi? Bu basqının başında dayanan isə Yezdəgirdin ərəb xəlifəsinə satılan bacısı əri Qeysər idi. Bu faktı mənalandıraraq Davud Nəsib ovaxtkı İran dövlətinin ərəb basqınları qarşısında çökməyini ustalıqla qələmə ala bilir: "Bir məmləkətin dağılması bir evdən, bir yurddan başlayır. İran kimi qüdrətli bir ölkə başçısı ola-ola başsız qalmışdı. Mülkədarlar nə istəyirdilər, onu da edirdilər... Qolugüclülərin, gözdən qıl qırpanların, ayağı itilərin dövranı başlamışdı... Başçı başını itirəndə belə olur..."

Əsər boyu ermənilərin həmişə gizli saxlamağa çalışdıqları niyyətləri Cavanşirin qətli ilə (680-681) ortaya çıxır. Onun qatili canını qurtarmaq üçün qaçıb Azıx mağarasında gizlənməyə çalışsa da, onu artıq gözlənilən cəzadan heç kim qurtara bilməzdi: mağaradan çıxan "balalarını itirmiş dişi bir ayı" onu bir andaca parçalayıb məhv edir. Bu, bəlkə elə Cavanşirin yaralı ruhu idi, kim bilir?!

Əsərin sonunda - "Sənədli epiloq"da müəllif Cavanşirdən sonra Albaniyanın ərəblər tərəfindən istilasına qədərki qısa bir dövrə nəzər salır və bu məsələdə erməni katolikosu İlyanın Xəlifə Əbd-ül-Malikə ünvanladığı məktubu "tarixin yazılı yaddaşı" kimi oxucularına təqdim edir. Görün belə məktubları sonrakı illərdə onlar daha kimlərə göndərmədi: "Hökmdar Əbd-ül-Malik, Əmir Möminə erməni katolikosu İlyadan. Qadir Allahın iradəsi ilə bizim tabe ölkəmiz sizə qulluq edir. Biz və Alban kilsəsi ilahi İsa dininə etiqad edirik. Partav (Bərdə) taxtında oturan indiki Alban katolikosu yunan imperatoru ilə sazişə girib öz ibadətlərində onun adını çəkir və ölkəni məcbur edir ki, hamı dini etiqadda ona qoşulsun və onun himayəsini qəbul etsin. İndi qoy bu, sizə məlum olsun, ta bu barədə qərar qəbul edəsiniz, çünki bu bədəfkarlıqda onun bir qadın həmfikri də vardır. Böyük hökmdar, siz öz hakimiyyətinizlə əmr buyurun, onlar Allaha qarşı işlətdikləri günah üstündə müstəhəqq olduqları cəzaya çatsınlar".

Erməni katolikosun məktubuna Əmir Möminin cavabı: "Ey Allahın xadimi və erməni xalqının katolikosu İlya, sənin səmimi məktubunu oxudum və sənə mərhəmətim olduğuna görə öz sədaqətli bəndəmi çoxlu qoşunla göndərdim. Əmr etdim ki, bizim hökmranlığımıza qarşı qiyam edən albanlarda sizin dininizə uyğun dəyişiklik edilsin. Bizim hökmü bəndəniz Partavda (Bərdədə) sənin hüzurunda icra edəcəkdir. Nersesi (Nerses - alban katolikosun xristian adıdır. Onun əsl adı Bakurdur) və bədəfkarlıqda onun həmfikri olan qadını bir zəncirlə bağlayacaq və elə şahanə mühakimə edəcəkdir ki, onlar bütün qiyamçıların yanında rüsvay olsunlar".

Müəllif haqlı olaraq yazır ki, bu sənəd qalmasaydı, nələr baş verərdi?

"Mənə elə gəlir ki, Albaniyanın - Azərbaycanın əsrlər boyu ardıcıl faciəsi bu tarixi sənəddən sonra başlayır. Tarixin tarixi olmayanda əfsanələşir..."

Bu həqiqətləri biləndən sonra bugünkü faciələrimizin də anatomiyasını sonacan anlamış, bilmiş olarıq. Çünki böyük Azərbaycan alimi, fədaisi Ziya Bünyadovun diliylə desək, əgər keçmişə mifik sərhədlər çəkmək həvəskarları ortaya çıxıbsa, onları müasir dövrə proyeksiya etmək həvəsində olanlar da peyda ola bilər. Təəssüf ki, beləlari peyda oldular da. Lakin onların arzusuna, istəyinə rəğmən tarixi həqiqətlər, əldə olan məlumatlar qanlı-qadalı, ancaq şərəfli keçmişimizlə bağlı tamam başqa şeylər danışır: "Faktlar məhz belədir! Heç resenzentlərimin istinad etməyə çalışdıqları Yuli Sezarın özünün köməyi ilə də burada nəsə etmək mümkün deyil. Amma mən qriqoryan kilsəsinin bir çox başqa dinlər kimi istənilən istilaçıya xidmət göstərdiyi barədə danışmayacağam. N.Vardapedov hələ bunu da yazır ki, qriqoryan kilsəsi "özü üçün yeni olan hər bir şəraitə məharətlə uyğunlaşır, siyasi konyunkturdan asılı olaraq bir zamanlar Bizans imperatorları, İranın Sasani çarları, ərəb xəlifələri, monqollar qarşısında diz çöküb təzim elədiyi kimi, Səfəvilərə, sonra isə rus çarına da beləcə qulluq göstərirdi" (Ziya Bünyadov).

Bu yerdə Strabonun hələ 20 əsr əvvəl dedikləri də yada düşür: "Tarix, köhnə də, yeni də olsa, həqiqəti tələb edir!"

*P.S. "Cavanşirsiz məmləkət" (2002) əsərinin sonunda Bərdədə ermənilərin vasitəçiliyi ilə haqsız yerə cəzalandırılan Alban katolikosu Bakuru öz vəsiyyətinə uyğun olaraq məzar yerini quyu kimi qazıb əl-ayağı zəncirli, ayaq üstə basdırdılar torpağa... O, bununla xalqı ayaq üstə durmağa çağırırdı: "Bu çağırışı nə erməni katolikosu İlya, nə də ki ərəb sərkərdəsi başa düşə bilməzdi. Bu, Alban torpağı üçün əbədi bir çağırış idi. Alban xalqının nə vaxtsa ayağa durub öz haqqını müdafiə edəcəyi günü görmək istəyirdi Bakur. Həmin gün qəbirdən baş qaldırıb, ayaq tutub addımlayacağına da inanırdı. O, gec-tez, nə vaxtsa o günün gələcəyini bəlkə də bildiyindən belə vəsiyyət etmişdi..."*

*Davud Nəsibin ölümündən bir il əvvəl qələmə aldığı əsərin bu ağrı-acılı kəlmələrlə bitən sonluğunu onun bizə öz vəsiyyəti kimi də qəbul etmək olar: "Əgər paslı zəncir axtarmaq fikrinə düşsəniz, əvvəl-əvvəl qəlbinizə nəzər salın, özünüzə qarşı zərrə qədər şübhə yaransa, onda bu işdən vaz keçin. O ürək sahibi - ad-san, şan-şöhrət, var-dövlət hislərindən, hərisliyindən kənar olub, təkcə torpaq eşqi, vətən məhəbbəti yaşatmalıdır içərisində. Bir məmləkətin, bir xalqın tale-tarixini araşdırmaq istəsəniz, yenə də heç bir qiymətə gəlməyən, ölçüyə sığışmayan milli dəyərlərə arxalanmağı unutmayın. Onda bu müqəddəs duyğularla Dəməşqin, Eçmiədzinin, Matanadaranın gizli saxlanılan ağzıbağlı arxivlərinə baş vurmağa çalışın. Torpağının, xalqının danışan dilini sandıq-sandıq daşıdılar vaxtilə. Dədəm Qorqudun da öz dövründə alban-oğuz əlifbasında qələmə alınan dastanının ilk nüsxəsini də tapa bilərsiniz həmin yerlərin birində... Bu günə qədər buraxdığımız səhvləri bu gündən səbirlə, ifcin-ifcin düzəldib yerinə qoymalıyıq... Bu sözlər yalnız və yalnız bu yurdu, bu xalqı canından artıq istəyənlərə aiddir".*

*Bizə isə tarix boyu itirdiklərimizə alban xalqının şair oğlu qoca Dəvdəkin Cavanşirin ölümünə yazdığı ağını təkrar söyləməkdən başqa bir şey qalmır:*

*Ey ilahi kəlamları xəlq eləyən ulu Tanrı,*
*Özün nəğmə - ağı söylə, yad et bizim hökmdarı.*
*Elə nəğmə - ağı qoş ki, bu əvəzsiz itki üçün*
*Gözümüzdən gecə-gündüz axsın odlu göz yaşları.*

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**

# Sumqayıt teatrı repertuarını zənginləşdirir

1959-cı ildə fəaliyyətə başlamış Sumqayıt Dövlət Dram Teatrı 50-ci mövsümünün həyatını yaşayır. Bu gün şəhərdəki yeniliklər sırasına daxil olanlardan biri də teatr binasına göstərilən qayğıdır. Bir zamanlar bu bina baxımsızlıq ucbatından arzuolunmaz vəziyyətə düşmüşdü. Sumqayıt Dövlət Dram Teatrının binası istifadəyə verildiyi 1959-cu ildən bəri bir dəfə də olsun əsaslı təmir edilməmişdi. İstilik sistemi köhnəlmiş binada normal qaydada tamaşaların məşqini belə aparmaq mümkün deyildi.





Ölkə rəhbərinin tapşırığı ilə burada təmir işləri genişləndirildi. Əsaslı təmir zamanı binanın bütün mühəndis-texniki qurğuları tamamilə yenidən quruldu. Binanın 500 yerlik tamaşa və 100 yerlik akt salonu ən müasir avadanlıqla təchiz olundu. Teatrda tamaşaları bədii və texniki cəhətdən yüksək səviyyədə təqdim etmək üçün 360 dərəcə hərəkət edən səhnə, müasir akustika, işıqlandırma sistemləri və digər avadanlıqlar quraşdırıldı.

Teatrın interyerinin daha cəlbedici görünməsi üçün milli memarlıq ənənələrindən geniş istifadə edilib. Binanın bütün xidməti, dekorasiya və qrim otaqları müasir üslubda tərtib olunub, mebellər tətbiqi sənətin qədim növü olan oyma üsulu ilə işlənib. Teatrın köhnə parket döşəməsi sökülərək monolit dəmir-beton plitələrlə əvəzlənib, binadakı sütunlar isə mərmərlə üzlənib.

Bu gün teatr binası tam şəkildə təmir edilərək sumqayıtlıların sərəncamına verilib. Yenicə 50 illik yubileyini qeyd edən Sumqayıt Dövlət Dram Teatrı böyük əzmlə repertuarını zənginləşdirməkdədir. Teatr mövsümə rus xalq nağılı əsasında səhnələşdirilən "Kim güclü, kim ağıllı?" tamaşasının premyerası ilə başlayıb. Eyni zamanda yeni mövsümdə bir neçə maarifləndirici, tanıdıcı layihə də gerçəkləşdirilməkdədir. Layihələrin məqsədi tamaşaçılarla birbaşa ünsiyyətdə olmaq, dərsliklərdəki Azərbaycan və dünya dramaturgiyasından seçmə əsərlərin şagirdlərə səhnə yozumu ilə, əyani şəkildə nümayiş etdirmək, diskussiyaların təşkilindən və maarifləndirmədən ibarətdir.

Uğurlu layihələrdən biri də kiçik yaşlı kontingentə hesablanmışdır. Tamaşanın gedişində uşaqlara ünvanlanan suallar və onu tapanlara hədiyyələr verilməsi həmin tamaşaları daha canlı edir. Bu layihə çərçivəsində yaradıcı kollektiv "Kaspi" uşaq bağçasının kiçik üzvlərinin qonağı olub və rejissor Ayla Osmanovanın sözləri ilə desək, teatr uğurlu nəticələrlə geri qayıdıb. Belə ki, bağçada verilən tamaşada yaxınlıqda yerləşən binalardan yüzlərlə könüllü tamaşaçı da iştirak edib. Məhz buna görə aktyorlar əlavə olaraq üç dəfə əsəri səhnəyə qoyublar. Rolları Kamran Muradlı, Aynur Hümbətova, Ceyhun Məhərrəmov, Dağlar Rüstəmov, Sevda Hüseynova, Rövşən Əsgərov və Elmir Mehdiyev ifa ediblər.Tamaşa vasitəsilə öyrənmə çağında olan körpə fidanlara ağlın, cəsarətin qol gücündən üstün olmasının vacibliyi mesajı ötürülüb.

Yeni ildə teatrın repertuarı genişdir. Qrimm qardaşlarının "İtkin qız", Con Patrikin "Qocanı öldürməliyik", rus xalq nağılı əsasında "Kim güclü, kim ağıllı?" və "Çeburaşkanın yeni il sərgüzəştləri", Elçinin "Qatil" əsərləri dekabrdan başlayaraq tamaşasevərlərin ixtiyarına verilib. Bu tamaşalar orta məktəb şagirdləri, yeniyetmələr üçün də aktualdır. Elə bunu nəzərə alan teatrın direktoru, əməkdar artist Mübariz Həmidovun təşəbbüsü ilə məlum kontingent teatrda səhnə əsərini izlədikdən sonra tamaşanın müzakirəsinə dəvət olunub. İlk təşəbbüs Sumqayıt şəhər 31 saylı məktəbin şagirdləri tərəfindən irəli sürülüb. Tamaşada şagirdlər nəzəriyyədə oxuduqlarını vizual seyr edə bilib və bir anlıq hadisələri aktyorlarla birgə yaşayıblar. Bu tipli tamaşalar milli dəyərlərimizin, mədəniyyətimizin, tariximizin məktəblilərə aşılanmasında mükəmməl vasitədir. Tamaşadan sonra uşaqlarla aparılan diskussiyada fərqlənənlər mükafatlarını da alıblar.

Beləcə, cari ili uğurla başa vuran teatrın kollektivi il sonu və yeni ilin əvvəlində tamaşaçıları intizarda qoymayacaq. Çünki təmir edilmiş binanın gözəlliyini tamaşalarla zənginləşdirmək onların - aktyorların işidir.

**Akif ƏLİYEV,**
**"Azərbaycan"**

# Ər-Riyadda keçirilən kinofestival çərçivəsində "Arşın mal alan" filminin rəngli versiyasının təqdimatı olub

"Arşın mal alan" filminin Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş rəngli versiyası Ər-Riyad şəhərində keçirilən "Səfirin seçimi" adlı kinofestival çərçivəsində təqdim edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirliyi tərəfindən təşkil olunmuş təqdimat mərasimində ölkədə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, həmvətənlərimiz iştirak ediblər.

Tədbirdə çıxış edən səfir Şahin Abdullayev bildirib ki, 1945-ci ildə çəkilmiş "Arşın mal alan" filmi 2013-cü ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə ABŞ-ın Los-Anceles şəhərində rənglənərək bərpa edilib. O, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun ölkəmizdə və xaricdə mədəniyyətimizin təşviqi istiqamətində gördüyü işlər barədə məlumat verib.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin yaradıcılığından söz açan diplomat onun operettası əsasında lentə alınmış "Arşın mal alan" filminin müxtəlif dillərə tərcümə edilərək bir çox ölkələrdə uğurla nümayiş olunduğunu diqqətə çatdırıb. O deyib ki, müsəlman Şərqində ilk operanın müəllifi olan Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası Azərbaycanın zəngin mədəniyyətinin parlaq nümunəsidir.

Film qonaqlar tərəfindən maraqla qarşılanıb.

# Dövlət sahibkarlara, sahibkarlar da dövlətə arxalanır

## Prezident İlham ƏLİYEV: “Biznes mühitinin yaxşılaşdırılması üçün respublikamızda mühüm addımlar atılır”

*Əvvəli 1-ci səh.*

Bu qanunun əsas məqsədi sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid qaydalarının müəyyən edilməsi və yoxlamaların aparılması zamanı sahibkarların fəaliyyətinə qanunsuz müdaxilələrin qarşısının alınmasıdır.

Qanunda ilk dəfə yoxlayıcı orqanın sahibkarlara məsləhət xidmətləri göstərməsi, yoxlamaların risk qiymətləndirilməsi prinsipi əsasında təyin edilməsi və elektron uçotu, yoxlamalar həyata keçirilərkən yaranan sualların siyahısının tətbiqi nəzərdə tutulur. Sənəddə həmçinin sahibkarların risk qrupları (yüksək, orta və aşağı) üzrə bölgüsü öz əksini tapıb. Sahibkarlıq subyektlərində yoxlamalar da məhz həmin bölgüyə uyğun olaraq həyata keçirilir. Yüksək risk qrupuna aid sahibkarlara münasibətdə yoxlamalar bir, orta risk qrupuna aid olanlarda iki, aşağı risk qrupuna aid sahibkarlıq subyektlərində isə üç ildə bir dəfədən çox olmayaraq aparılır. Qanuna əsasən, hər bir yoxlayıcı orqan tərəfindən internet saytında yoxlama zamanı cavab verilməli olan sualların siyahısı dərc edilməlidir. Bu isə sahibkarlara əvvəlcədən onlardan nələr tələb olunduğunu bilmələrinə imkan verir. Hər bir yoxlayıcı orqanda “Qaynar xətt” fəaliyyət göstərir. Sahibkarların yoxlayıcı orqanların mütəxəssislərini öz obyektlərinə dəvət etmələrinə də imkan yaradılıb. Bu, sahibkara yardım xarakteri daşıyır və onu gələcək qanun pozuntularından sığortalayır.







Məlum olduğu kimi, sahibkarların hüquqlarının müdafiəsinin daha da gücləndirilməsi ilə bağlı dövlət başçısının 3 fevral 2016-cı il tarixli fərmanına əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında, eləcə də mərkəzi və yerli icra hakimiyyəti orqanlarında fəaliyyət göstərən apelyasiya şuraları yaradılmış, onların fəaliyyətini tənzimləyən əsasnamələr təsdiq edilmişdir. Apelyasiya şuraları sahibkarlar tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı müvafiq icra hakimiyyəti orqanının qərarlarından (qərarların qəbul edilməsindən imtinadan) və ya sərəncamından, əmrindən, hərəkət və ya hərəkətsizliyindən verilmiş təkrar şikayətlərə baxan kollegial orqandır. Bu şuraların qərarlarından, hərəkət və hərəkətsizliyindən verilmiş şikayətlərə isə Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasında baxılır.

Sahibkarların hüquqlarının dövlət tərəfindən qorunmasının digər bir aspekti də onlarla dövlət arasında operativ əlaqə mexanizminin qurulmasıdır. Bu, sahibkarlara qarşılaşdıqları problemləri operativ həll etməyə imkan yaradır, üstəlik ayrı-ayrı məmurların qanundankənar tələblərinin qarşısını alır.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***





# “Bizim həyət” layihəsinin növbəti töhfəsi





IDEA İctimai Birliyinin və “Cavan” Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşkilatçılığı və Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə baxımsız həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi uğurla davam edir.

Bu günlərdə “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Xətai rayonu, Xudu Məmmədov, 4-4a ünvanında 400 nəfərə yaxın sakinin məskunlaşdığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Xətai Rayon İcra Hakimiyyətinin dəstəyi ilə “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan və 3200 kv.m sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə uşaq oyun və idman elementləri, əyləncə qurğuları yaradılıb, 3 ədəd söhbətgah salınıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq binaların fasadları və giriş hissələri tam təmir olunaraq istifadəyə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ağac və kol əkilib, 500 kvadratmetr ərazidə yaşıllıq salınıb.

“Bizim həyət” layihəsinə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilib. Xətai rayonunda sakinlərin istifadəsinə verilmiş bu həyət layihə çərçivəsində abadlaşdırılan doqquzuncu həyətdir.

Sakinlər yaşadıqları həyətlərin bu cür yüksək səviyyədə abadlaşdırılmasına görə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya dərin təşəkkürlərini bildiriblər. Qeyd edək ki, layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Xətai rayonunda da digər məhəllələrin abadlaşdırılması planlaşdırılır.

Xatırladaq ki, bununla yanaşı, IDEA İctimai Birliyinin təşəbbüsü ilə digər layihələr də həyata keçirilib. İndiyədək təşkilatın təşəbbüsləri çərçivəsində rayon ərazisində bir neçə dəfə ağacəkmə kampaniyası təşkil olunub.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

### Dekabrın 21-dən 22-nə keçən gecə Böyük Çillə girir

# Şəbi-Yelda

Payızın son, qışın ilk gecəsi, ilin ən uzun və ən qaranlıq gecəsi Yelda… Şairlərimiz bu günü vəsf edib, gözəlin uzun və qara saçlarına, zil qara gözlərinə bənzədiblər, şəbi-Yelda deyiblər… Xalqımız isə bu günü bayram edib, gələcək işıqlı günlərin məhz bu ən uzun qaranlıq gecədən doğulduğuna inanıblar...

## Yerin Ayla eyni başlanğıc nöqtəsinə gəlməsi üçün...

Folklorun tərkib hissəsi olan xalq bayramları tarix boyu inkişaf yolu keçərək, təkmilləşmiş müxtəlif adət, ənənə, mərasim və ayinlərlə zənginləşmişdir. Bayramlarımız təbiətlə, təqvimlə, ilin müəyyən günləri, saatlarıyla bağlı olub. Azərbaycan xalqı da yüzilliklər boyunca erkən təsəvvürləri ilə bağlı bir-birindən rəngarəng milli bayramlarını yaratmışdır. Bu bayramlar ilkin dövrlərdə əkinçilik, maldarlıq, ovçuluq, xalçaçılıq, səma cisimləri ilə bağlı ayinləri, mərasimləri ənənəvi olaraq davam etdirmişdir. Bu xalq bayramlarını meydan tamaşaları, yallılar, insanların məişəti ilə bağlı oyunlar bəzəmişdir.

İslamaqədərki bayramlarımızdan biri də dekabrın 21-dən 22-nə keçən gecə qeyd olunan Yeldadır. Yelda gecəsi - Yer kürəsinin Şərq yarımkürəsində ilin 365 gününün ən uzun qaranlıq gecəsidir. Yer kürəsinin Günəş ətrafına bir dəfə tam dövrü bir il ərzində (365 günə) gerçəkləşir. Bu müddətdə Ay həm öz, həm də Yer kürəsi ətrafında 12 dəfə dövr etmiş olur. Bu, Ay təqviminə görə, tam bir ilə bərabərdir. Lakin Yer kürəsi bu dövrü tamamlayıb başlanğıc nöqtəsinə gəldikdə Ay hələ həmin nöqtəyə gəlib çatmır. Yer kürəsinin Ayla eyni başlanğıc nöqtəsində görünməsi üçün 19 il keçməlidir. On doqquz illik bir müddət astronomiyada meton ili adlanır. Yəni Ay təqvimi 19 ildən bir düzəldilməlidir.

## Minilliklərdən süzülüb gələn adət-ənənə

Filologiya üzrə fəlsəfə doktoru Almara Nəbiyeva bildirir ki, araşdırmalara əsasən demək olur ki, xalqımızın bir sıra bayramlarının başlanğıcı miladdan əvvəlki minilliklərin adət-ənənəsinə söykənir.

Xalqımızın milli yaddaşında cilalanaraq bugünümüzə gəlib çatan bayramlardan biri də Yelda gecəsidir: “Təəssüf ki, uzun illər ərzində dini, mənəvi-əxlaqi dəyərlərimiz, adət-ənənələrimiz bolşevik ideologiyasının müqavimətinə tuş gəlmişdir. XX yüzilliyin 20-50-ci illərində bütöv xalqın min ildən artıq bir müddətdə yaşatdığı dini, mənəvi dəyərləri yasaq edilmişdir. Xalqın Şərqlə bağlılığını qırmaq üçün əski əlifba dəyişdirildi, milli adət-ənənələrdən uzaqlaşdırılmaq meyilləri gücləndirildi. Lakin bədxahlarımız dədə-baba adət-ənənələrimizi unutdurmağa çalışsalar da, buna nail ola bilmədilər. İnsanların mənəvi cəhətdən təmizlənməsinə xidmət edən belə bayramlar, müvəqqəti olaraq küçə və meydanlardan ürəklərə, evlərə köçdü... Xalqımız öz azadlığına qovuşduğu gündən bayramlarımız da yenidən dəyərləndi və öz əvvəlki təravətinə, ab-havasına qaytarılaraq daha da şux keçirilməyə başlandı”.

## Həm də arzu, niyyət gecəsi…

Böyük Çillənin gəlişi ilə keçirilən bayramın magik xarakter daşıdığını söyləyən filoloq qeyd edir ki, folklorşünas alimimiz Azad Nəbiyev həmin bayram barədə yazırdı ki, Novruza hələ doxsan gün qalmış, yəni qışın, - Böyük Çillənin girməsi ilə bağlı xalq arasında çillə şənlikləri keçirilərdi və müxtəlif nəğmələr oxunardı. Bu gecə şəms ilinin, dey ayının başlanğıc gecəsidir, azər ayının - qışın ilk başlanğıc gecəsi və Novruz bayramına üç ay qalmışa təsadüf edən bir gecədir. Qırx gün davam edən Böyük Çillənin ilk günüdür. Miladi tarixi ilə dekabrın 21-dən 22-nə keçən ən uzun qaranlıq gecə Böyük Çillənin girməsi ilə bağlıdır. Bu çillənin ömrü qırx gün davam edir deyə xalq əvvəlcədən qışa tədbir görərdi: “Əvvəlki illərdə qış ayları çox sərt, soyuq keçirmiş. Ona görə də insanlar qışın gəlişini ruh yüksəkliyi, bol süfrə ilə qarşılayırlar ki, qış ağır keçməsin. Dağlıq ərazidə yaşayanlar bu bayramı daha önəmli keçirirlər. Əvvəlcədən bolluq üçün ərzaq tədarük edilirdi. Qışın başlamasından daha çox çobanlar narahat olduqları üçün süfrədə təmtəraq yaradırdılar ki, üzümüzə gələn il, inşallah, bolluq ili olsun, mal-qara aclıqdan, soyuqdan əziyyət çəkməsin. Bu bayram gecəsi Tanrıya nəzir-niyaz deyilib ki, qış yaxşı keçsin, qarşıdan gələn yazda taxıl, meyvə, tərəvəz bol olsun. Qarşıdakı illərin, ayların xoş gəlməsi üçün aylı gecədə, isti sobanın kənarında oturub səhərə kimi nağıllar, dastanlar, qaravəllilər söyləyərmişlər. Gecədən sübhə kimi insanlar dua edərmişlər ki, qışdan yaza sağ-salamat çıxsınlar. Bu gecə insanlar üçün həm də arzu, niyyət gecəsi olub. Yelda gecəsi insanlar çalışırlar ki, yatmasınlar”.

## Günəşin qələbəsi bayram edilərdi

Almara Nəbiyeva məlumat verir ki, ilin qarşıdakı yeni baharının bünövrəsini qalın qışla qoyan gecədə nağıl, dastan danışılar, qovurğa, qovut yeyilər, günəşin şüalarını xatırladan qarpız dilimi yeməklə xəstəlikdən, azar-bezardan uzaq olacaqları düşünülər, səhəri gün isə günəşin qələbəsi kimi bayram edilərdi: “Yay aylarında qarpızı, ağ qabağı xarab olmasın deyə ot tayalarının, ya da samanın içərisində (sünbülün küləşi) Çilləçıxarma bayramı üçün saxlayırdılar. Həmin gün böyük süfrə açır, qarpızı dilimləyər, hər dilimini bir siniyə qoyar, üstünə örtük salar, xonça kimi paylayarlar”.

Alim qeyd edir ki, ümumtürk bayramı olan Yelda gecəsindən əvvəl təmizlik işləri başlanardı, səliqə-sahman yaradılardı. Bayrama hazırlaşan qonşular bir-birinə kömək edər, iməcilik keçirərdilər. Qonşuya, qohuma bu gün üçün pay tutulardı. Bu gecədə ən çox yeyilən meyvələrdən nar, tərəvəzlərdən isə qarpız və boranıdır. Bayram günü boranı bişirilər (Lənkəran ərazisində), balıqla bir yerdə yeyilərdi. Qarpız, balqabaq, nar, dairəvi olduğu üçün həm Yer kürəsini simvolizə edir, həm də birlik mənasını daşıyır.

## Dünya da bu bayramı qeyd edir

Azərbaycanın Gəncə, Şəki, Lənkəran, Naxçıvan, Qarabağ və başqa ərazilərində Yelda gecəsi mərasiminin hər il qeyd edildiyini söyləyən Almara Nəbiyeva məlumat verir ki, dünyanın bəzi ölkələrində də bu bayram qeyd edilir. Niderlandda bu günü Müqəddəs Tomas günü, Çində Duncçitsze bayramı, slavyan mifologiyasinda Karacun, Təbrizdə isə Şəbi-Yelda (Yelda gecəsi) kimi hər il qeyd edirlər. Həmin gündən günəşli günlər uzanmağa başlayır. Bayramın rəmzi işığın qaranlıq üzərində simvolik qələbəsidir. İnanca görə, bu gecədə qarın yağması ilin sevincinə, bol bərəkətinə səbəb olur. Cənubi Azərbaycanın, demək olar ki, bütün bölgələrində əski dövrlərdən şəbi-Yelda möhtəşəm keçirilmişdir. Bu bayram həmin ərazidə indiyə qədər yaşayır: “Araşdırma zamanı məlum oldu ki, Yelda gecəsi Təbrizdə ailələr bir araya gəlir, sözlü və nişanlılar bu gecə bir-birlərinə dadlı hədiyyələr göndərir, evlərinə qonaq olur və nişanlı qız ziyarətə gələnlərə kəsilməmiş parça və paltar hədiyyə edir”.

## İldə bir Yelda olar, bir ay iki Yeldayə bax

Filoloq deyir ki, qədim dövrlərdən yazarlarımız bu bayram mərasimini şeirlərində anmışlar. Yelda gecəsi ilə bağlı türkdilli poeziyada, qəzəl ustadlarının irsində xeyli nümunə var. Azərbaycan ədəbiyyatında Seyid Əzim Şirvaninin, Qasım bəy Zakirin, Əzizə Cəfərzadənin, Məhəmmədhüseyn Şəhriyarın, Hüseyn Asiqinin, Anarın və digər yazarlarımızın yaradıcılığında bayramın adət-ənənələri təsvir edilmişdir. Bu bayram mövzusunun tərənnümü ustad aşıqlarımızın da yaradıcılığında öz əksini tapmışdır.

XIX əsrin şairəsi Heyran xanımın bu bayramla bağlı işlətdiyi istiarələr maraqlı və yaddaqalandır:

*Qaşları ol dilbərin göydə olub qövsi-kəman,*
*Qaşlara bir qıl təmaşa, sonra tazə ayə bax.*
*Ay üzü saçlar arasında yaratmış möcüzə,*
*İldə bir Yelda olar, bir ay iki Yeldayə bax!*

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Moskva-Yerevan münasibətləri sürətlə pisləşir

## Ermənistan yeni daxili və xarici problemlər məngənəsindədir

*Əvvəli 1-ci səh.*

“Qraparak” nəşrinin məlumatına görə, Karapetyan artıq çoxdandır partiya üzvləri ilə ünsiyyət saxlamır. Bu addıma səbəb isə partiya üzvlərinin Serj Sarkisyanla birlikdə onun əleyhinə çalışması və pis rəftarı olub. Karapetyanla birlikdə ona görə 2017-ci il seçkisi ərəfəsində Sarkisyanın partiyasına qoşulmuş 7 min nəfər də partiya sıralarından ayrılacaq. “Respublika” partiyası Karen Karapetyanın partiya sıralarından ayrılmaq üçün ərizə ilə müraciət etdiyini təsdiqləyib.

### “Respublika” partiyasının daxilində parçalanma sürətlənib

“Past” qəzeti isə yazır ki, “Respublika” partiyasının daxilində parçalanmalar həqiqətən də sürətlənib: “Buna səbəb isə Serj Sarkisyanın fəaliyyətidir. Belə ki, partiya üzvlərinin bir hissəsi Sarkisyandan narazıdır. Onların fikrincə, Sarkisyan patiyanı uğursuzluğa düçar etdiyindən sıralarından getməlidir”.

Belə vəziyyətdə erməni mediası yazır ki, 2008-ci ilin 1 mart hadisələri ilə bağlı istintaq Sarkisyanı da dindirib Koçaryan kimi həbsə atmağa hazırlaşır. Amma Sarkisyan təkcə bu hal üzrə təqsirli bilinmir. Bundan əlavə, Serj Sarkisyanın adı bank və müəssisələrin səhmləri ilə fırıldaqçılıqla bağlı cinayət işində də hallanır.

Ermənistan istintaq komitəsi bildirir ki, “Kredit Yerevan” ASC və “Lev Marsed” MMC-nin səhmləri ilə fırıldaqçılıq üzrə 2009-cu ilin 27 iyulunda açılmış cinayət işi çərçivəsində icra hakimiyyəti orqanlarının yüksəkvəzifəli rəsmilərinin, o cümlədən Serj Sarkisyanın vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi barədə faktiki sübutlar əldə olunub. Bütün bunlar Sarkisyan ətrafında halqanın daraldığını göstərir. Bu fonda o da qeyd olunur ki, Paşinyan iqtidarının həbsə atdığı və atmağa hazırlaşdığı şəxslər daha çox Rusiyaya bağlıdır. Belə gedişlər etməklə Paşinyan Rusiyanın Ermənistan üzərində təsirlərini zəiflətməyə çalışır.

### Yerevan Rusiyanın xəbərdarlıqlarına məhəl qoymur

Yeri gəlmişkən qeyd edək ki, Moskva-Yerevan münasibətləri sürətlə pisləşir. Bunu Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasinin açıqlaması da təsdiqləyir. Məsələyə geosiyasi rakursda yanaşan Karasin bildirib ki, bu il Ermənistandakı köklü dəyişikliklərin fonunda rəsmi Vaşinqtonun onun daxili və xarici siyasət işlərinə qarışması getdikcə daha ədəbsiz olur: “Məsələ Moskvanın Ermənistan parlamentinin ABŞ-a doğru yön alacağından qorxması deyil. Narahatlığa səbəb ilk növbədə dost Ermənistan xalqında var. Vaşinqtonun baş verən radikal dəyişikliklər fonunda bu ölkənin daxili və xarici siyasətinə müdaxiləsi adi hala çevrilir.

Biz artıq ABŞ-ın Yerevandakı əvvəlki səfiri Riçard Milzin bununla bağlı açıq etiraflarına şərh vermişik. Bu etiraf onunla fərqlənirdi ki, o, ictimai şəkildə erməni hökumətinə büdcənin formalaşdırılmasıyla bağlı dərs keçirdi və Vaşinqtondan ödəniş alan QHT-lərdən hökumət üzərindən gözlərini çəkməməyi tələb edirdi. Oktyabr ayında ABŞ Prezidentinin milli təhlükəsizlik müşaviri Con Bolton Yerevana gələrək Ermənistana ABŞ silahlarını almaq və ən qısa vaxt ərzində İrana qarşı sanksiyalara qoşulmaq göstərişi vermişdi. ABŞ-Ermənistan münasibətlərinin hələ üzdə olan tərəfi budursa, onda pərdəarxası necə təzyiqlər olduğunu təsəvvür etmək olar”.

Karasin Ermənistan üçün Ukrayna və Gürcüstanı misal göstərib və Ukraynanın taleyinin faciəvi olduğunu xatırladıb: “Kiyevin milli maraqlarının əksinə olaraq, onu öz qlobal strategiyasının reallaşdırılmasında itaətkar vasitəyə çevirmək üçün Qərb burada dövlət çevrilişi etdi. Bəs Gürcüstan? Axı məhz NATO üzvlüyü ilə vədlər Mixail Saakaşvilini Cənubi Osetiyada 2008-ci il avqust hərbi avantürasını yaratmağa gətirib çıxardı. Bu, onun ölkəsinin ərazi itkisinə səbəb oldu. Hesab edirik ki, parlament seçkisində lazımi mandat əldə etməyi bacaran Ermənistanın indiki rəhbərliyi özündə cəsarət tapıb xarici şantaj və təzyiqlərə müqavimət göstərəcək, suveren haqqını müdafiə edərək, milli maraqlara uyğun olaraq müstəqil qərar verəcək”.

Erməni mediası bu açıqlamalar fonunda yazır ki, Rusiya ilə Ermənistanın münasibətləri kəskinləşir və bu da Yerevanın lehinə deyil. Eyni zamanda Yerevan Rusiyanın bu xəbərdarlığına məhəl qoymur. Xarici İşlər Nazirlyinin sözçüsü Anna Nağdalyan bu xüsusda bildirir: “Ermənistan bir dövlətlə münasibətlərini digərlərinin ziyanına qurmur. Biz artıq neçənci dəfədir vurğulayırıq ki, Ermənistan başqa ölkələrlə münasibətlərini suveren bərabərlik prinsipi üzərində qurur. Biz bir dövlətlə əlaqələrimizi digər ölkələrlə münasibətlərimizin ziyanına qurmuruq. Bu mövqe gələcəkdə də bizim xarici siyasətimizin əsasını təşkil edəcək”.

Ermənistan baş nazirinin səlahiyyətlərini icra edən Nikol Paşinyan isə ABŞ tərəfindən Yerevana hansı təzyiqlərin edildiyinin nəzərdə tutulduğunu anlamadığını bildirir: “Düzünü desəm, məndə sual yarandı ki, hansı təzyiq və şantajdan söhbət gedir. Mən rusiyalı həmkarlarımdan öyrənməyə çalışacağam ki, bu informasiya nəyə əsaslanır. Ermənistan müstəqil siyasət aparır və belə də davam edəcək”.

Paşinyanın bu açıqlaması göstərir ki, Yerevan Moskvanın xəbərdarlığını nəzərə almayaraq ABŞ-la işbirliyini davam etdirmək niyyətindədir. Bütün bunlar isə qarşıdakı dövr ərzində Rusiya və Ermənistan münasibətlərində gərginliyin yüksələn xətt üzrə davam edəcəyini göstərir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Seyidli, Sarıcalı, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Londondakı “Hampton Court” Kral sarayında “Alxan” ləqəbli Qarabağ atının heykəlinin açılışı olub

Dekabrın 19-da Londonda start götürən Olimpiya Beynəlxalq Atçılıq Şousu çərçivəsində “Hampton Court” Kral sarayının ərazisindəki atçılıq mərkəzində “Alxan” ləqəbli Qarabağ atının tuncdan hazırlanmış heykəlinin açılışı olub.

Mərasimdə Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) prezidenti Elçin Quliyev, Kral sarayının rəhbəri Lord Vestey, Kraliça atçılıq mərkəzinin rəhbəri Tobi Brouni, Vindzor At Şousunun direktoru Simon Bruks Vard, şounun departament müdiri Sara Ruterford Couns və digər şəxslər iştirak ediblər.



Lord Vestey 2012-ci, 2016-cı və 2018-ci illərdəki Vindzor Kral At şoularına böyük dəstəyinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib. Eyni zamanda, Kraliça II Elizabetin hədiyyəyə görə dərin təşəkkürünü çatdıraraq, heykəlin yerinin məhz Kraliça tərəfindən seçildiyini qeyd edib.

ARAF-ın prezidenti Elçin Quliyev Azərbaycan Prezidenti İlham Əliyevin dəstəyi sayəsində son illər Qarabağ atlarının dünyada şöhrətinin və nüfuzunun artdığını, Böyük Britaniya ilə respublikamız arasında müvafiq sahədə əməkdaşlığın beynəlxalq miqyasda atçılıq idmanının inkişafına ciddi töhfə verdiyini, bu münasibətlərin ildən-ilə daha da genişlənməsindən məmnunluğunu ifadə edib.

Xatırladaq ki, Qarabağ atlarının cari il mayın 10-13-də Kral Vindzor At Şousunun 75 illik yubileyinə və Britaniya Kraliçası II Elizabetin doğum gününə həsr olunmuş tədbirlərdə möhtəşəm şou proqramları böyük coşqu və heyrətlə qarşılanıb. ARAF-ın nümayəndə heyəti Böyük Britaniya Taxt-Tacının sahibi Ülyahəzrət Kraliça II Elizabetin doğum günü münasibətilə “Alxan” ləqəbli Qarabağ atının tuncdan hazırlanmış heykəlini hədiyyə edib.

Dekabrın 21-də Azərbaycan nümayəndə heyəti Olimpiya Beynəlxalq At Şousunda möhtəşəm proqramla çıxış edəcək. ARAF-ın hazırladığı proqram “Odlar Yurdu Azərbaycan və Qarabağ atı” adlanır. Həyəcanverici bu proqram Dövlət Sərhəd Xidmətinin Qarabağ atları üzərində nümunəvi hərəkətlər yerinə yetirən süvarilər dəstəsinin və rəqs ansamblının çıxışlarından ibarət olacaq.

London mərkəzindən 19 kilometr məsafədə yerləşən “Hampton Court” Kral sarayının inşasına 1515-ci ildə başlanılıb. Saray Kral VIII Henrinin yaxın əyanlarından olan kardinal Tomas Volsi üçün tikilib. Bu möhtəşəm imarət Böyük Britaniyanın qədim saraylarından biridir. Britaniyanın ən qədim atçılıq mərkəzi məhz bu sarayın ərazisində yerləşir. 1528-ci ildə qurulan mərkəz bu gün Kraliçaya məxsus atların yetişdirilməsi, təlimlərinin keçirilməsi və saxlanması üçün fəaliyyət göstərir.

ARAF Böyük Britaniyanın ən məşhur atçılıq tədbirlərindən olan Vindzor At şoularının 2012-ci ildən etibarən iştirakçısı olub. Həmin il üç Qarabağ atı və rəqs qrupu ilə çıxış edən heyət 1956-cı ildən sonra ilk dəfə sarayda qəbul edilən nümayəndə heyəti olub. 1956-cı ildə ilk dəfə “Zaman” ləqəbli Qarabağ atı Böyük Britaniya Kraliçası II Elizabetin doğum günü münasibətilə ona hədiyyə edilib. Gözəlliyi və hərəkətləri ilə hamını valeh edən Qarabağ atları son illər Kraliçanın doğum günü tədbirlərinin mütləq iştirakçısına çevrilib.

ARAF-ın təşkilatçılığı ilə Qarabağ atları 2016-cı ildə Kraliça II Elizabetin 90 illik yubiley tədbirlərində möhtəşəm şou proqramla dünyanı bir daha heyran edib.

***“Azərbaycan”***

## B İ L D İ R İ Ş

Dövlət Turizm Agentliyi tərəfindən Rəqəmsal marketinq xidmətlərinin satın alınması ilə əlaqədar 01 noyabr 2018-ci il tarixdə elan edilmiş təkliflər sorğusu üzrə Tender komissiyasının 07.12.2018-ci il tarixli Yekun protokoluna əsasən “Scalista GmbH” şirkəti qalib elan olunmuş və 13.12.2018-ci il tarixdə həmin şirkətlə müqavilə imzalanmışdır.

**Əlaqələndirici şəxs: Vüsalə Əliyeva.**
**Əlaqə üçün telefon: 012-492-87-13.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Turizm Agentliyi tərəfindən Agentlik tabeli qurumları üçün İKT avadanlıqları və xidmətlərinin satın alınması ilə əlaqədar 01 noyabr 2018-ci il tarixdə elan edilmiş təkliflər sorğusu üzrə Tender komissiyasının 07.12.2018-ci il tarixli Yekun protokoluna əsasən “Best-comp Group” MMC şirkəti qalib elan olunmuş və 13.12.2018-ci il tarixdə həmin şirkətlə müqavilə imzalanmışdır.

**Əlaqələndirici şəxs: Vüsalə Əliyeva.**
**Əlaqə üçün telefon: 012-492-87-13.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Turizm Agentliyi tərəfindən Turizm üzrə təlim və səyahət xidmətlərinin satın alınması ilə əlaqədar 01 noyabr 2018-ci il tarixdə elan edilmiş təkliflər sorğusu üzrə Tender komissiyasının 07.12.2018-ci il tarixli Yekun protokoluna əsasən “Paşa Travel” MMC şirkəti qalib elan olunmuş və 13.12.2018-ci il tarixdə həmin şirkətlə müqavilə imzalanmışdır.

**Əlaqələndirici şəxs: Vüsalə Əliyeva.**
**Əlaqə üçün telefon: 012-492-87-13.**

***Tender komissiyası***

# Qış yarmarkasında əhaliyə aşağı qiymətlərə məhsullar təklif olunacaq

Dünya Azərbycanlılarının Həmrəyliyi və Yeni il bayramı ilə əlaqədar Ağstafada qış yarmarkası təşkil ediləcək. Ağstafa Aqrar Sənaye Kompleksinin təşkilatçılığı ilə keçiriləcək yarmarkada əhaliyə bayram süfrələri üçün lazım olan bütün ərzaq məhsulları təklif olunacaq.

Dekabrın 24-də başlayacaq yarmarkanın açılışı günü burada böyük bayram tədbiri də keçiriləcək. Tədbirdə tanınmış incəsənət ustalarının - Gülyaz və Gülyanaq bacıları, Zakir Əliyev, Damla, Namiq Qaraçuxurlu, Sevil-Sevinc bacıları, maestro Ceyhun, “Şeron” qrupu, Samir Cəfərov və başqalarının çıxışları gözlənilir.



Yarmarkanın keçiriləcəyi 7 gün müddətində axşam saat 17-dən 22-dək uşaq və yeniyetmələrin asudə vaxtlarını mənalı etmək üçün xüsusi proqramlar təşkil olunacaq. Şaxta babanın və Qar qızın iştirakı ilə keçiriləcək şənliklərdə şəhid ailələrinin övladlarına yeni il hədiyyələri paylanacaq.

Qış yarmarkasının keçirildiyi müddət ərzində rayonun incəsənət ustaları, o cümlədən milli rəqs qrupları, saz ustaları da maraqlı proqramlarla çıxış edəcəklər. Rayona gələn yerli və xarici turistlərə isə milli xörəklər şirniyyatlar təklif olunacaq.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## “Azərsu” ASC printer və kompüterlərin təmiri işlərinin satın alınması məqsədilə

## *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: mühəndis Hikmət Qasımova (hikmat.qasimov@azersu.az +99412431-47-67 (2249)) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş təkliflərini 25 dekabr 2018-ci il saat 15:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri “Azərsu” ASC-nin Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda yerləşən inzibati binasında 26 dekabr 2018-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Meksikada miqrant düşərgəsinə hücum



Meksikanın Tixuana şəhərində naməlum şəxslər Mərkəzi Amerikadan gəlmiş miqrantların düşərgəsinə hücum etmişlər. TASS agentliyinin xəbərinə görə, müvəqqəti məskunlaşma mərkəzinin ərazisində gözyaşardıcı qaz tətbiq olunmuşdur. Nəticədə bir neçə nəfər, o cümlədən uşaqlar və qadınlar zərər çəkmişlər. Hücum edənlər hadisə yerindən qaça bilmişlər.

Hadisənin baş verdiyi “Barretal” düşərgəsində 3 minə yaxın miqrant məskunlaşmışdır. Onların əksəriyyəti Hondurasdan gələnlərdir.

## Yaponiya məhkəməsi “Nissan”ın sabiq top-menecerini azadlığa buraxdı



Yaponiya məhkəməsi maliyyə pozuntularında şübhəli bilinərək həbs olunmuş “Nissan” şirkətinin direktorlar şurasının sabiq sədri, şirkətin “Renaut” və “Mitsubishi” ilə alyansının rəhbəri Karlos Qonu girov müqabilində azadlığa buraxmışdır. Bu barədə “Kyodo News” agentliyi xəbər verir. Məlumata görə, məhkəmə prokurorluğun biznesmenin dünən vaxtı bitmiş ilkin saxlama müddətini uzatmaq xahişini rədd etmişdir.

Qon ötən ayın 19-da həbs olunmuşdu. O, vergidən yayınmaq məqsədilə özünün əməkhaqqının məbləği barədə bilərəkdən yanlış məlumat verməkdə şübhəli bilinirdi. Onunla birlikdə şirkətin direktorlar şurasının üzvlərindən daha biri - Qreqori Kelli həbsə atılmışdır.

Noyabrın 22-də Qon “Nissan” direktorlar şurasının sədri vəzifəsindən azad edilmiş, bir neçə gün sonra isə “Mitsubishi”də analoji vəzifədən məhrum olunmuşdur. Bununla belə, o, “Renaut”un başçısı kürsüsünü qoruyub saxlaya bilmişdir.

## “Ebola” yeni ərazilər zəbt edir



Konqo Demokratik Respublikasında “Ebola” qızdırmasına yoluxanların sayı 500 nəfəri ötmüşdür. Artıq 271 nəfər bu xəstəliyin qurbanı olmuşdur. Bu barədə “Anadolu” agentliyi xəbər verir.

Bu, ölkədə ilk epidemiya deyil. 1980-ci illərin axırlarından bəri Konqoda “Ebola”ya qarşı mübarizə gedir. Buna baxmayaraq, hazırda virus tədricən yeni əraziləri zəbt etməyə başlayır.

## Albaniyada iki iranlı diplomat persona non qrata elan olundu

İranın Albaniyadakı səfirliyində xidmət edən iki iranlı diplomat persona non qrata (arzuolunmaz şəxs) elan edilmişdir. Müvafiq bəyanatla Albaniya Xarici İşlər Nazirliyinin nümayəndəsi, Avropa İttifaqı işləri üzrə kurator Edlira Prendi bəyanatla çıxış etmişdir.

Prendi bildirmişdir ki, iki diplomatın hərəkətləri onların diplomatik statusuna ziddir. Nazirliyin nümayəndəsinin dediyinə görə, iranlı diplomatların persona non qrata elan edilməsi barədə qərar müttəfiq ölkələrlə məsləhətləşmədən sonra qəbul olunmuşdur.

# ABŞ qoşunlarını Suriyadan çıxarır

Ağ evin mətbuat katibi Sara Sanders ABŞ qoşunlarının Suriyadan çıxarılması əməliyyatının başladığını elan etmişdir. Bu barədə “İnterfaks” agentliyi xəbər verir.

Eyni zamanda Sanders bildirmişdir ki, Yaxın Şərqdəki ABŞ koalisiyası lokal təhdidlərlə mübarizə aparmaq üçün mövcudluğunu davam edəcək.

“Röyter” agentliyinin xəbərinə görə, Dövlət Departamentinin bütün əməkdaşları 24 saat ərzində Suriyadan çıxarılacaqlar. ABŞ Silahlı Qüvvələri isə İŞİD-ə qarşı əməliyyatın son mərhələsi başa çatdıqdan sonra ölkədən tamamilə çıxacaq. Bu proses yüz gün ərzində başa çatacaq.




Bir müddət əvvəl ABŞ Prezidenti Donald Tramp bildirmişdi ki, amerikalı hərbçilər Suriyaya ancaq İŞİD qruplaşması ilə mübarizə üçün göndərilmişdir. Onun dediyinə görə, hazırda terrorçulara tamamilə qalib gəlmək mümkün olmuşdur. Ona görə ABŞ yaxın vaxtlarda Suriyanı tərk edə bilər.

# Payızın sonuncu günündə dağlıq və dağətəyi rayonlarda qar yağacaq




Azərbaycanda dekabrın 21-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı, gecə bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Günün ikinci yarısında yağışın tədricən kəsiləcəyi gözlənilir. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 4-6°, gündüz 6-8° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 770 millimetr civə sütunu, nisbi rütubət 80-90 faiz təşkil edəcək.

Azərbaycanın bölgələrində arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə intensiv olacağı ehtimal edilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-5°, gündüz 6-9° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

Naxçıvan Muxtar Respublikasında havanın arabir yağıntılı olacağı, qar yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Bəzi yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, dağlıq ərazilərdə 6-8° şaxta, gündüz 2-7° isti olacağı ehtimalı var.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman müşahidə ediləcək. Havanın temperaturu gecə 3-8° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında arabir yağış yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 2-5° isti, gündüz 6-9° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında arabir yağış, dağlıq və dağətəyi ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə duman müşahidə ediləcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 4-7° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 0-4° şaxta olacağı bildirilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında arabir yağış yağacağı, gecə bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 2-5°, gündüz 6-9° isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Dağlarda duman olacaq. Havanın temperaturunun gecə 4-6°, gündüz 6-9° isti, dağlarda gecə 0-3° şaxta, gündüz 3-5° isti olacağı bildirilir.

***26 fevral 1971-ci il Bakı Şəhər İcraiyyə Komitəsinin Bağlar Təsərrüfatı Tresti tərəfindən Raziyə Hüseyn qızı Əliyevanın adına Mərdəkan qəsəbəsində yerləşən 0,25 hektar bağ sahəsinə verilmiş (Bağ-728/820) 811 nömrəli Müqavilə itdiyi üçün etibarsız sayılır.***


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8412
Sifariş 3826
Qiyməti 40 qəpik